**Keşməkeşli və Şərəfli Ömür**

**Heydər Əlirza Oğlu Əliyev - 100**



Bu il Azərbaycan xalqının yetirdiyi dahi şəxsiyyətlərdən biri Azərbaycan Respublikasının ümummilli Lideri, bu günün, gələcək nəsillərin yaddaşında Ulu öndər kimi əbədiyaşarlıq qazanmış Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100-cü ilidir. Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da qədim Şərqin qapısı - Azərbaycanın qədim tarixi məskənlərindən biri, Nuh Peyğəmbərin diyarı, elmin, mədəniyyətin, sənətin, ədəbiyyatın beşiyi “Nəqş-i cahan”-da – Naxçıvanda anadan olub.

Heç fərqində olmasaq da hər şey addan başlayır. Heydər Əlirza oğlu Əliyev. Bu ad da, soyad da, beləcə ata adı dərin məna kəsb edir və bu mənalar onun taleyinə, ömür yoluna bir naxış oldu...

***Haşiyə.*** *Heydər sözü ərəbcədən tərcümədə arslan, cəsur, igid, qəhrəman, şir mənalarını verir. Həmçinin Heydər İslam dünyasının elm, iman sahibi, şiələrin birinci imamı, Kəbədə doğulmuş, Məhəmməd peyğəmbərin (s.s.) yaxını və qızının əri Həzrət Əlinin ləqəblərindən biridir. Heydər Əliyev bu inancların hər birini 80 illik ömründə ləyaqətlə və qürurla daşıyıb.*

*İgid olub, qəhrəman olub, dini inanc sahibi olub. Ateist mühitdə dininə sadiq, etiqadlı şəxsiyyət olub. Müqəddəs Həcc ziyarətinə gedib və xalqının mömin bəndələri üçün Məkkəyə mənəvi körpü salıb.*

*Bundan başqa Heydər adı ona keçən əsrin əvvəllərində tarixi torpaqlarımızdan deportasiya olunan insanlarımızın üzləşdiyi erməni vandallığı səbəbindən çox gənc - 23 yaşında həlak olmuş dayısının xatirəsinə qoyulub.*

*Heydər Əliyevin yaddaşında bəlkə dünyaya gəldiyi ailənin didərginlik taleyinin izlər salmasındadır ki, o, Azərbaycan xalqının qaçqın və köçkünlərinin vətən həsrətini dərindən hiss edir, bütün qüvvəsi ilə yurd-yuvasından didərgin düşmüş insanların problemlərinin həllinə çalışırdı.*

***Kim salmışdı Qarabağa düyün,***
***Aça-aça çəkdin zülm, zülm Öndərim, Öndərim! (X. Q)***

Heydər Əliyev məşhur Möminə Xatun Türbəsi memarı Əcəmi Naxçıvanini, ədəbiyyatımızın üç nəhəng nümayəndəsi - Mirzə Cəlili, M. S. Ordubadini, Hüseyn Cavidi yetirən Naxçıvanda dünyaya gəlmişdi və təbii, onun ilk oxuyub-öyrəndiyi əsərlər, bənzəmək istədiyi qəhrəmanlar bu mütəfəkkirlərin tarixi məzmun kəsb edən yaradıcılıq irsi, yaratdıqları qəhrəmanlar idi. Beləcə, tarixi məzmunlu, milli ruhlu bu möhtəşəm əsərlər, vətənpərvər qəhrəmalar həyata atılan "gənc adamda" onların mübarizlik ideallarını həyata keçirmək, onların yolu ilə getmək əqidəsini, məsləkini, məqsədini yaratmaqla, həyat amalına çevrilməklə mənəvi aləmini, intellektual səviyyəsini zənginləşdirmiş, fəlsəfi dünyagörüşünü formalaşdırmışdır.



Təsadüfi deyil ki, Heydər Əliyev 1939-cu ildə, yəni 16 yaşında ikən, Naxçıvan Pedaqoji Texnikumunda oxumuş, bu ilk təhsilini başa vurduqdan sonra qurub-yaratmaq arzularının zirvəsinə doğru daha inamla addımlamışdır. Belə ki, Heydər Əliyev 1887-ci il qədər zamanından xeyli uzaq bir dövrdə Zaqafqaziya Respublikalarında birinci ali texniki məktəb olan Bakı "Politeknikumun"-un əsasında onun dünyaya gəldiyi 20-ci illərdə yaradılmış "Qırmızı əmək bayrağı" ordenli (1931) ən nüfuzlu ali təhsil ocağı – o vaxtlar Azərbaycan Sənaye İnstitutu adlanan (indiki Azərbaycan Dövlət Neft və Sənaye Akademiyası) ali təhsil məktəbinə daxil olmuşdur.

Gerçək məqsədin və bəlkə də alın yazısının harmonik təzahürüdür ki, Heydər Əliyev 1934-cü ildə məşhur Azərbaycan Sənaye İnstitutunun bir neçə mühüm ixtisası arasından gözünü açıb anladıqca valeh olduğu, sənətin əlçatmaz kəhkəşanında onu pərvazlandıran Möminə Xatun Türbəsi kimi dahiyanə abidələr yaratmaq arzusunun məktəbi memarlıq fakültəsini seçmişdi.

Heydər Əliyev təhsil həyatı haqqında ilk dəfə olaraq bir məsələni burada diqqətə çatdırmağı məqsədəuyğun bilirik. Bu o vaxt az sayda tələbə qəbul edən Azərbaycan Sənaye İnstitutuna qəbulla bağlı şərtlərlə bağlıdır. Belə ki, Azərbaycan Sənaye İnstitutuna hələ 1920-ci ilin Əsasnaməsinə görə sənəd verənlərin 7 əsas üzrə, məsələn,  xüsüsi ali məktəblərin tələbələri, ikinci – türk dili bilənlər, üçüncü – fəhlələr, dördüncü – AKBP MK və BK-dən göndərilənlər, beşinci – qızıl ordu nümayəndələri, altıncı – şura qulluqçuları, yeddinci – qalan vətəndaşlar, -  fərqləndirilərək seçilməsi nəzərdə tutulurdu ki, Heydər Əliyev bu ali məktəbə fikrimizcə, hərtərəfli biliyi ilə yanaşı həm də tələblərə uyğun şəkildə - ali məktəb tələbəsi (birinci şərt) və  həm də “türk dili” bilən gənc mütəxəssis kimi üstünlük qazanaraq qəbul olunmuşdur.

1941-ci ildə SSRİ-də başlamış II Dünya müharibəsi neft ölkəsi Azərbaycanın bütün sahələrinə, o cümlədən təhsilə də öz dağıdıcı təsirini göstərmiş və Heydər Əliyev və tələbə yoldaşları  təhsillərini başa vura bilməmiş, əmək fəaliyyətinə başlamışlar.  Öz həyat yolunu dövlətə xidmət amalı kimi müəyyənləşdirmiş Heydər Əliyev həmin vaxt  - 1941-1944-cü illərdə (sanki 20 il öncədən təhtəlşüur olaraq közərən alın yazısı ilə) Naxçıvan MSSR-in Daxili İşlər Xalq Komissarları Sovetində məxfı arxiv şöbəsinin müdiri, Naxçıvan MSSR Xalq Komissarları Sovetinin ümumi şöbəsinin müdiri, həmçinin 1944-1949 - Naxçıvan MSSR Dövlət Təhlükəsizliyi orqanlarında əməliyyat müvəkkili, baş əməliyyat müvəkkili, həmçinin NDTK və ADTN-də şöbə rəisi vəzifələrində çalışmışdır.



Bu ciddi xidmət sahələrində nümunəvi kadr olaraq hörmət və etimad qazanan Heydər Əliyev həmin illərdə təhsilini də davam etdimiş, SSRİ-nin ikinci əsas şəhəri Leninqradda (indiki Sankt-Peterburq şəhərində) xüsusi ali məktəbdə, habelə, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində (buranı 1957-ci ildə bitirmişdir) oxumuşdur.

Heydər Əliyev beləcə, biliklərə hərtərəfli yiyələnməklə, siyasi idarəçilik təcrübəsini artırmaqla məsul dövlət vəzifələrinə, məsələn, 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə bu ciddi qurumun sədri vəzifəsinə və general-mayor rütbəsinə yüksəlmişdir.

Heydər Əliyev Azərbaycanın Dövlət Təhlükəsizlik Orqanlarında çalışarkən hələ uşaqlıq dövründən ermənilərin vəhşilikləri ucbatından öz yurd-yuvasından didərgin düşmüş, itkilər vermiş ailəsinin acı xatirələri ilə, habelə oxuduğu ədəbiyyatlardan erməni vandallığını və onlarla mübarizənin qaçılmaz olduğunu yaxşı bilən bir vətənpərvər şəxs kimi dəfələrlə erməni daşnaklarının, separatçıların Dağlıq Qarabağın Azərbaycandan ayrılması ilə bağlı məqsədli milli münaqişə planlarının, təxribatlarının qarşısını peşəkarlıqla almışdır.

Aşağıdakı iqtibasda şərh olunan fikirlər Heydər Əliyevin ona möhkəm yaddaşı və səriştəli çekist olaraq ermənilərin məkrli “siyasətinin” ona çoxdan məlum olduğunu və bu mənfur gəlmə qonşularla özünün mübarizəsini ifadə edir: "30-cu, 40-cı, 50-ci, 60-cı, 70-ci illərdə erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə çox qızğın fəaliyyətə başlamışdılar. Ancaq

onların qarşısı alınmışdır. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam" (Heydər Əliyevin 1960-1970-ci illərdə erməni-daşnak qüvvələrinin Azərbaycan əleyhinə yönəlmiş məkrli planlarına qarşı qətiyyətli mübarizəsi (http://www.azerbaijannews.az/index.php?mod=3&id=21280).

Heydər Əliyevin bunları deməyə ciddi əsasları vardı. Heydər Əliyevin Azərbaycanın Dövlət Təhlükəsizlik Orqanlarında çalışarkən erməni-daşnak təşkilatlarının heç vaxt soyumayan düşmən münasibəti ilə bağlı əyani şahidi olduğu daha bir hadisəni də misal gətirməklə biz həm erməni xislətini, həm də onlarla əsl vətənpərvər çekist olaraq mübarizə aparmış ümummilli lider şəxsiyyətini göstərmək istəyirik. Belə ki, hələ 1966-cı ildə Azərbaycan SSR KP MK-ya Azərbaycan əleyhinə yaradılmış qeyri-qanuni "Erməni gənclər ittifaqı" adlı təşkilat və onun Dağlıq Qarabağ torpaqları daxil olmaqla Naxçıvanın, Ermənistanın və hətta Azərbaycanın daha başqa bir neçə rayonunun Ermənistana verilməsi məqsədi güdməsi barədə göndərdikləri məktubla əlaqədar Heydər Əliyevin şəxsən öz yüksək dövlət vəzifəsinin ona verdiyi imkanlar və ən əsas vicdan səsi ilə peşəkar “addımlar” atmışdır. Gerçək rəsmi faktlar bundan ibarətdir ki, Heydər Əliyev yüksək peşəkarlıqla ermənilərin həmin təşkilatının “beyni” olan Saakyan adlı şəxsin saxlanılması, onun təşkilatının hər gün, hər saat çoxaldılaraq paylaşılan proqramı-nizamnaməsinin yığışdırılması, təşkilatın digər aparıcı qüvvələrinin təxribatçı əməllərinin qarşısının alınması istiqamətində ciddi tədbirlər həyata keçirmiş və məsələni hüquq müstəsində həll etmişdir (Heydər Əliyevin 1960-1970-ci illərdə erməni-daşnak qüvvələrinin Azərbaycan əleyhinə yönəlmiş məkrli planlarına qarşı qətiyyətli mübarizəsi (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=21280).

Bundan başqa Heydər Əliyev Dövlət Təhlükəsizlik Orqanlarında yüksək vəzifədə çalışarkən peşəkar milli çekist kimi ermənilərin türk millətinə qarşı tarixi düşmən münasibətlərindən çıxış edərək əsas niyyətlərinə - Azərbaycan torpaqlarının işğalı ilə bağlı arzularına çatmaq üçün intihar səhnəcikləri düzəltməklə və bunu Qarabağ əhalisinin üzərinə atmaqla, hətta bu süni şoularından sonra azərbaycanlılara divan tutmaqla milli zəmində kəskin mürəkkəb vəziyyət yaratmalarının da qarşısını almış, cəsarətlə kütləvi təxribat qruplarının qanuni həbsinə, hətta 5 nəfər haqqında ölüm hökmünün çıxarılmasına nail olmuşdu. Bu da çox maraqlı bir tarix izidir ki, xalqını qəlbən sevən, onun əsl milli təəssübkeş rəhbəri olmuş Heydər Əliyev həmin hadisə vaxtı 15 gün Azərbaycan SSR DTK-nin sədri məsul iş qrafikini və rahat şəraitini münaqişə olan ərazdə gərgin, narahat iş rejiminə dəyişmişdir(Heydər Əliyevin 1960-1970-ci illərdə erməni-daşnak qüvvələrinin Azərbaycan əleyhinə yönəlmiş

məkrli planlarına qarşı qətiyyətli mübarizəsi (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=21280).

Bu məqamda biz "Heydər Əliyevin 1960-1970-ci illərdə erməni-daşnak qüvvələrinin Azərbaycan əleyhinə yönəlmiş məkrli planlarına qarşı qətiyyətli mübarizəsi" yazısından xalqımızın bu nəhəng tarixi şəxsiyyətinin fəaliyyətinin mərkəzində dayanan Dağlıq Qarabağın işğaldan və separatçı qüvvələrdən qorunması məsələsinə daha bir konkret misal gətirməyi məqsədəuyğun hesab edirik.

**Haşiyə.** *"Azərbaycan SSR DTK-nin Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə şöbənin rəisi polkovnik Dmitri Bıstrovun məruzəsindən: "Ötən hesabat dövründə verilmiş tapşırıqlarla əlaqədar keçirilmiş əməliyyat tədbirləri zamanı 1968-ci ildə 1967-ci ilə nisbətən milliyyətçi vərəqələrin hazırlanması və yayılması, eləcə də ermənilərin azərbaycanlılara qarşı hücumları kəskin azalıb. Belə ki, 1967-ci ildə 30 müəllif tərəfindən hazırlanan 1.241-dən çox vərəqə və məktub (bunlardan 1.200-ü vərəqə, qalanları isə məktub şəklində) aşkarlansa da, 1968-ci ildə bu qəbildən olan ümumilikdə 17 müəllif tərəfindən hazırlanan 53 sənəd aşkar edilib. Bununla belə, keçirilən tədbirlər zamanı yenə də qruplar aşkar edilərək ləğv edilib, onlardan çoxlu miqdarda vərəqələr və həmin vərəqələri hazırlamaq üçün lazım olan avadanlıqlar aşkar edilərək götürülüb (AR MTN arxivi) (AR MTN arxivi)"*(Heydər Əliyevin 1960-1970-ci illərdə erməni-daşnak qüvvələrinin Azərbaycan əleyhinə yönəlmiş məkrli planlarına qarşı qətiyyətli mübarizəsi (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=21280).

*Yeri gəlmişkən qeyd edək ki, Heydər Əliyev* bu *məsuliyyətli və şərəfli vəzifə kürsüsündə milli dövlət maraqlarımızı sovet totalitar rejiminin ağır təzyiqlərinə məhəl qoymadan bütövlükdə peşəkarcasına qoruması haqqında özünün dərin məzmunlu nitqlərindən birində demişdir: "Mən bü gün böyük iftixar hissi ilə deyə bilərəm ki, dövlət təhlükəsizliyi orqanlarında rəhbər vəzifələrdə işlədiyim zaman, bu orqanın başçısı olduğum zaman və ondan sonra Azərbaycan Respublikasının başçısı olduğum zaman Azərbaycan xalqının milli mənafeyinə əks olan heç bir tədbir görülməmişdir"* (Heydər Əliyevin 1960-1970-ci illərdə erməni-daşnak qüvvələrinin Azərbaycan əleyhinə yönəlmiş məkrli planlarına qarşı qətiyyətli mübarizəsi (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=21280).

Heydər Əliyevin məhz Azərbaycan xalqının milli mənafeyini hər şeydən üstün tutması onu Milli dövlət quruculuğu məqsədinə doğru addım-addım aparmış və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək xalqı üçün tarixyüklü Respublikanın rəhbəri ali vəzifəsinin icrasına başlamışdır.

Heydər Əliyev Azərbaycan Respublikasının birinci katibi kürsüsündə də erməni siyasi planlarının qarşısını almaq üçün  mühüm işlər həyata keçirmişdir. Bunlardan biri haqqında "Xalq" qazetinin "Heydər Əliyev: Şərəfli ömür yolunun unudulmaz anları" məqaləsində ətraflı bəhs olunur. Müəllif, Naxçıvan şəhərindən olan müəllim Mirzəli  Tağıyev yazır: "1938-ci il mayın 5-də sərhəd rayonlarında (Qazax və Gədəbəy) 2 min hektardan artıq Azərbaycan torpaqlarının Ermənistana verilməsi haqqındakı qərarı 1969-cu il mayın 7-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti təsdiq etməsinə baxmayaraq, 1969-cu ilin iyul ayında Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev bu qərarın icrasına imkan verməmişdir" (Tağıyev Mirzalı. Heydər Əliyev : Şərəfli ömür yolunun unudulmaz anları(http://www.xalqqazeti.com/az/news/politics/94200).

Yüksək idarəçilik bacarığına malik Heydər Əliyev sovet quruluşu kimi totalitar, avtoritar dövrdə Azərbaycan dilini, ölkə təhsilini, millətin gələcəyi olan gənclərin sağlamlığını və s. sahələrin inkişafını düşünərək fundamental sosial-mədəni, iqtisadi, mənəvi və eləcə də hüquqi məsələləri həyata keçirmişdir. Tarixə ekskluziv nəzər yetirməklə biz bu dediklərimizi əyani surətdə təsdiq edə bilərik.

Məsələn, Heydər Əliyev Azərbaycan Sov.İKP-nin birinci katibi seçildiyi 1969-cu ilin elə fəaliyyətə başladığı növbəti ayında - avqust plenumunda xalqın elmi təfəkkürünün inkişafı ilə bağlı həllivacib məsələləri qabardaraq bu sahənin problemlərini və qarşıda dayanan məqsəd və vəzifələri müəyyənləşdirmişdi:

*"Elmi idarələrimizin fəaliyyətində hələ ciddi nöqsanlar vardır. Elmlər Akademiyası, bir sıra sahə elmi idarələri elmi-texniki tərəqqinin sürətləndirilməsi uğrunda, tamamlanmış işlərin istehsalata tətbiqi uğrunda mübarizədə kifayət qədər əzmkarlıq göstərmirlər... Dissertasiyaların heç də hamısı lazımi nəzəri səviyyədə yazılmır. Aspiranturada vəziyyət yaxşı deyildir... Alimlik dərəcəsi alanlar arasında nazirliklərin və digər mərkəzi idarələrin rəhbər işçiləri də az deyildir. Elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirməyə, irəlilətməyə qabil olan adamlar gəlsinlər...*"(Hacıyev İ. Heydər Əliyev və Azərbaycan elminin inkişafıhttp://www.xalqqazeti.com/az/news/politics/71061).

Akademik İsmayıl Hacıyevin "Heydər Əliyev və Azərbaycan elminin inkişafı" məqaləsində yuxarıdakı iqtibasda şərh olunan nöqsanların 70-80-cı illərdə məhz ölkə rəhbəri Heydər Əliyevin xüsusi diqqəti və nəzarəti sayəsində sürətlə aradan qaldırıldığına dair statistik dəlillər göstərilmişdir:

*"Ümummilli lider Azərbaycanı ölkə elminin mərkəzlərindən birinə çevirmək məqsədilə elmi-tədqiqat institutlarının, elmi işçilərin sayının artırılmasına çalışır və onlara qayğı göstərirdi. Bu sahədə onun fəaliyyəti kifayət qədər uğurlu idi. Əgər 1969-cu ildə*

*Azərbaycanda fəaliyyət göstərən 89 elmi-tədqiqat institutlarında, digər layihə müəssisələri və problem laboratoriyalarında 12850 elmi işçi, o cümlədən 55 akademik və müxbir üzvü, 329 elmlər doktoru və 3000 elmlər namizədi var idisə, 1978-ci ildə elmi-tədqiqat, layihə və sahə institutlarının sayı 118-ə, elmi işçilərin sayı 21407 nəfərə, akademik və müxbir üzvlər 100 nəfərə, elmlər doktorları 853, elmlər namizədlərinin sayı 7594 nəfərə çatmışdı"* (Hacıyev İsmayıl. Heydər Əliyev və Azərbaycan elminin inkişafı, http://www.xalqqazeti. com/az /news/ politics/71061).



***Heydər Əliyev: "İdman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur"***
*(http://www.olimpiyadunyasi.com/w9032.html)*

*Bunlarla bərabər "Sağlam bədəndə sağlam ruh olar",- qədim atalar məsəlimizin dərin ideyasını müdrik siyasətinin əsas məqsədinə çevirən Heydər Əliyev milli gəncliyin hərtərəfli yetkin olması, ölkənin aparıcı qüvvəsinə çevrilə bilməsi üçün hələ 1974-ci ildə, Azərbaycan SSR MK-nin I katibi vəzifəsində fəaliyyət göstərərkən mühüm qərarların qəbul olunmasının təşəbbüskarı olmuşdur. Məsələn, Nazirlər Soveti onun irəli sürdüyü "Respublikada bədən tərbiyəsi və idmanın vəziyyəti və onun daha da inkişaf etdirilməsi tədbirləri haqqında" qərarı qəbul etmiş, bununla da əksəriyyətlə gənclər və orta yaşlı insanların həqiqi rifahına bağlı geniş miqyaslı tədbirlərə sitat verilmişdi. Bu qərara uyğun olaraq ölkə boyunca həm çoxsayda idman qurğuları tikilmiş, həm idman təhsil müəssisələri açılmış, həm də idman maarifləndirici işləri, məsələn, qazetlər, televiziya proqramları və s. açılmaqla, bədii və sənədli filmlərin çəkilməsi ilə bu sahədə geniş təbliğat və təşviqat aparılmışdı. Qərardan*

*sonra 5 il müddətində Respublikanın 70 rayonunu əhatə edən inzibati ərazisində 10580 idman qurğusunun inşa edilib istifadəyə verilməsi rekord hadisə idi ki, bu da Heydər Əliyevin öz xalqının sağlam həyatının, sağlam gələcək nəsillərinin təminatçısı missiyasından qaynaqlanırdı. Əlbəttə ən əsas məsələ "Respublikada bədən tərbiyəsi və idmanın vəziyyəti və onun daha da inkişaf etdirilməsi tədbirləri haqqında" qərar Heydər Əliyevin idman və gənclər siyasətinin tərkib hissəsi idi və ölkədə bu siyasətin təntənəsi qadınların da idmana*-bu *gənclik və sağlamlıq ruhlu sahəyə can atmasında özünü təsdiqləmişdir. Məhz Heydər Əliyevin 1969-cu ildə hakim kürsüdə çalışdığı ildən 5 il müddətinə statistikaya görə, yəni 1969-1976-cı illər arası Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunda 1000-dən çox gənc qızlarımız oxuyub, məzun olmuşdur.*

Heydər Əliyev XX əsrin 70-ci illərində ölkənin neft planını artıqlaması ilə yerinə yetirən, dövlət büdcəsinə yüz milyardlarla xeyir verən Bakı neft zavodlarının köhnə avadanlıqlarının yenilənməsi məqsədi ilə ciddi addımlar atmış, hətta müasir avadanlıqlarla təchiz olunmuş iki böyük Neftayırma zavodunun tikilməsinə nail olmuşdur.



***Heydər Əliyev: ''1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir''.***
(https://azerbaijan.az/related-information/131)

Bunun ardınca Respublikanın ayrı-ayrı şəhər və rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında, Sumqayıtda, Gəncədə, Mingəçevir şəhərində elektrotexnika, cihazqayırma, dəzgahqayırma, kimya zavodları yaradılmışdır.1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Bakıda "8-ci kilometr", "Musabəyov", "Əhmədli", "Günəşli", "Hövsan", "Xırdalan" kimi irimiqyaslı qəsəbələr yaradılmışdır.

"Gülüstan", "Əl oyunları" sarayları, "Xoreqrafiya məktəbi", "Azərbaycan", "Abşeon", "Moskva", "Qarabağ", "Bakı" və başqa mehmanxanaları, "Bakı", "Moskva" univermaqlarını, Bakı Dövlət Sirki, Aktyorlar evi, Bakı bulvarı, Dağüstü park, Milli Məslisin (keçmiş Ali Sovet) binası və həmçinin onlarla bank, ali məktəb binası da bu illərdə tikilmişdir.

Məhz Heydər Əliyevin yüksək idarəetmə peşəkarlığı və ölkə vətəndaşlarına böyük diqqət və qayğısı nəticəsində keçən əsrin 70-ci illərində "Ulduz", "Əzizbəyov", "Qara Qarayev", "Neftçilər", "Nizami", "Elmlər Akademiyası", ''İnşaatçılar", "20 yanvar", "Memar Əcəmi" metro stansiyaları yaradılaraq insanlarımıza rahatlıq, şəhərimizə müasirlik, gözəllik bəxş etmişdir. Heydər Əliyev 1970-ci illərdən başlayaraq Respublikada muzey işinin zənginləşməsinə də çalışmış, 1980-ci ildə Muzey İşinin İnkişafı haqqında Qərar qəbul edilmişdir.

Həmin illərdə nəinki, Respublika miqyasında, hətta daxil olduğumuz SSRİ regionunda məşhur olan Bakı Qaz Aparatları zavodu, Sabunçu rayonunda tikilmiş iki monumental körpü, neçə-neçə təhsil ocağı, yenidən qurulan Bakı Fəhləsi və Zabrat Maşınqayırma zavodları, Geofizcihaz istehsalat Birliyi, Balaxanı Neft İdarəsi, Keyfiyyət Evi binası və başqa müəssisələr, yaşayış massivləri və digər obyektlər yüksək idarıçilik peşəkarlığına malik Heydər Əliyevin uzaqgörən müdrik siyasətinin ifadəsi və nəticəsi idi.

Belə rəhbər əzmkarlığı ilə tarix yazan Heydər Əliyev əslində vətəni Azərbaycan SSRİ tərkibində olsa da onu müstəqil dövlət kimi düşünərək hərtərfli inkişaf etdirmişdir. 1982-ci ilin dekabr ayında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib və SSRİ-nin rəhbərlərindən biri olub. Heydər Əliyev iyirmi il ərzində SSRİ və Azərbaycan SSR Ali Sovetlərinin deputatı olub və beş il SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışıb.

***Haşiyə***: *Rusiyanın "Nezavisimaya" qazetinin müxbiri Viktoriya Panfilova:*

*"Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə – mahiyyətcə milli lider postuna, Sosialist Əməyi Qəhrəmanı adına layiq lider idi. Bu 10 ildə Azərbaycanın sənaye potensialı iki dəfədən çox artdı. Onun şəhər və kəndlərinin siması tanınmaz dərəcədə dəyişdi. 15 Respublikadan yalnız Rusiya və Azərbaycan SSRİ-in dövlət büdcəsindən subsidiyalara yol*

*vermədi. Gələcəyin prezidenti Heydər Əliyev o vaxtlar doğma Respublikanın çiçəklənməsi haqqında taleyinə minnətdarlıqla yazırdı: "Gözəl illər idi. ... İşdən sonra mən evə getmədən "gələcək" üçün yeni planlar düşünərdim. Düşünürdüm vəzifəmin mənə verdiyi imkanlardan necə istifadə edim ki, xalqıma faydalı olsun". Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər yaradıcılıq və quruculuq mərhələsi oldu. 313 sənaye müəssisəsi tikilib istifadəyə verildi. Azərbaycan xalq təsərrüfatının müxtəlif sahələrində inkişaf uğurlarına görə ardıcıl olaraq 12 dəfə qalib gəldi"(Панфилова Виктория.Формула успеха Гейдара Алиева http:// vesti kav ka za .ru/articles/Formula-uspekha-Geydara-Alieva-1.html).*

*Məqalə müəllifi həmçinin,-"Sovet İttifaqı Nazirlər Sovetində xidmət vəzifəsinə gəldikdə, Elmlər Akademiyası, Mədəniyyət Nazirliyi, Dövlət Televiziya və Radio Şurası, səhiyyə və təhsil, mühəndislik, ticarət, yüngül sənaye, nəqliyyat və kommunikasiyaların bütün növlərinə rəhbərlik etmişdir. Onun təşəbbüsü ilə ilk kompleks Diaqnostika Mərkəzləri yaradılmışdır. Onun dəstəyi sayəsində sovet cərrahlarına ilk əməliyyatları açıq ürəkdə aparmağa icazə verildi. Heydər Əliyev Göz Mikrocərrahi Mərkəzinin açılışına kömək etdi. Heydər Əliyev Svyatoslav Fyodorova Volqa boyunca seyr edən çay qayığında mobil laboratoriya yaradılması üçün lobbiçilik etdi"* (Панфилова Виктория.Формула успеха Гейдара Алиева http:/ /vestikavkaza. ru/ articles /For mula-uspekha-Geydara-Alieva-1.html). -- *kimi dolğun faktlarla Azərbaycan xalqının yetirdiyi dahi şəxsiyyətin ömür yolunu və dövlət quruculuğu fəaliyyətini işıqlandırır.*

Heydər Əliyevin SSRİ-nin yüksək hakimiyyət kürsüsündə fəaliyyəti dövründə həyata keçirdiyi islahatlar arasında onun 1980-ci ildə hazırladığı Təhsil haqqında Rusiya qanunudur ki, Rusiya dövləti indiyədək ondan faydalanmaqdadır (ətraflı: "Если бы Гейдар Алиев стал президентом СССР" məqaləsində (https://ok.ru/bizimkiller/topic/75636143366144). Heydər Əliyevin SSRİ siyasi rəhbərliyində təmsil olunduğu dövrdə böyük dövlət xadimi təcrübəsi ilə, peşəkarlıqla həllinə nail olduğu nəhəng tarixi işlərdən biri də BAM-ın - Baykal Amur Magistralının tikintisi olmuşdur. Məlumdur ki, Rusiya üçün siyasi və iqtisadi, eyni zamanda sosial-mədəni strateji əhəmiyyət kəsb edən BAM layihəsinə hələ 1888-ci ildə, yəni III Aleksandrın Rusiyaya başçılıq etdiyi dövrdə başlanılsa da iş tamamlanmamış, 1914-cü ildə II Nikolay bu Layihə üçün sənəd imzalamış, hətta Layihə xəritəyə belə daxil edilmiş, lakin buna baxmayaraq yenə nəticəsiz qalmış, İ.Stalin 1932-ci ildə yenidən BAM tikintisi məsələsinə qayıtmış və hökumətə bu məsələni həll etmək üçün 3 il vaxt vermişdir. Lakin Stalin hökmranlığı, sərt şərtlər-əhalinin bütün təbəqələrindən olan kütlənin bu ümümxalq işinə cəlb olunması 1937-ci ilə kimi davam etsə də dünya müharibəsinin başlaması ilə bağlı yenə

yarımçıq qalmışdır. Rusiya BAM tikintisinə dördüncü dəfə - 1974-cü ildə təkrar start versə də idarəçiliyin qeyri-peşəkarlığı səbəbindən Layihə yenə bütünlüklə tamamlanmamışdır.

Yalnız Heydər Əliyevin cəsarəti sayəsində 1983-ci ildə BAM Layihəsinin icrasına başlanılır. Şəhərlərin salınmasını, minlərlə kilometr yolun, körpünün çəkilişini və s. geniş miqyaslı quruculuq işlərini əhatə edən dünya səviyyəli BAM-ın tikintisinin bir il ərzində həyata keçirilməsi həqiqətən də Heydər Əliyevin əfsanəvi lider qüdrətindən xəbər verirdi. Maraqlıdır ki, bu nəhəng tikintinin qarşısı 3 siyasi hadisə səbəbindən – 1. Birinci və İkinci Dünya Müharibələri və habelə, "yenidənqurma" təkanları ilə bağlı olaraq alınmışdır. Xarakterik bir misal gətirə bilərik. Belə ki, 1985-ci ilin yanvar ayında 1984-cü ilin Yekunlarının müzakirəsində bu məsələ ilə bağlı Heydər Əliyevin çıxışı dinlənilmiş və müsbət qiymətləndirilmişdir. Məhz 1985-ci ilin martında M. Qorbaçovun Sov.İKP MK Baş katibi seçilməsi ilə bütün ölkədə cərəyan edən "yenidənqurma" işləri BAM tikintisindən də yan ötmür və Rusiya üçün mühüm əhəmiyyət daşıyan, strateji BAM Layihəsində böhran başlayır.

Lakin Heydər Əliyevin 1974-cü ildə hələ Azərbaycana rəhbərlik etdiyi vaxtlardan BAM tikintisinə göstərdiyi diqqət, 1983-cü ildə SSRİ rəhbərliyində təmsil olunarkən bu ağır quruculuq sahəsini canlandırıb demək olar ki, sona çatdırması tarixdə öz izini qoya bilmişdir. Buna əyani misal kimi BAM-da Heydər Əliyevin adının onun ideyası ilə salınmış və əhalisinin üçdə birinin Azərbaycanlılardan ibarət olduğu qəsəbəyə verilməsi faktını göstərmək olar.



***Heydər Əliyev dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış azərbaycanlıların birlik və həmrəyliyinin yaradılmasına xüsusi əhəmiyyət verirdi.***
*(https://axar.az/news/siyaset/331870.html)*

Bu da Heydər Əliyevin milli dövlət qurucusu, milli lider taleyinin xeyli əvvəldən görünən həqiqətlərindəndir: Heydər Əliyev Azərbaycandan təxminən 10 min kilometr uzaqlıqda olan BAM-da yaradılan yaşayış obyektlərinə, yollara, körpülərə və s. məkanlara Azərbaycan milli ornamentlərini verməklə, xalqımızın ruhunu ifadə edən koloritləri daşlar, qurğular üzərinə həkk etdirməklə "gizlində"- ürəyinin dərinliklərində yaşatdığı milli müstəqil dövlət quruculuğu ideallarını və həmçinin də siyasətdə, dövlət quruculuğu sahəsində peşəkarlığını təsdiq etmişdir. Belə yüksək peşəkarlıq keyfiyyətləri isə görkəmli dövlət xadimi Heydər Əliyevin onillər boyu yeritdiyi daxili və xarici siyasətin saysız-hesabsız sahəni əhatə edən problemlərinin düzgün həllində əksini tapmışdır.

Lakin xarici qüvvələrin təsiri ilə Sov.İKP MK Siyasi Bürosunun sədri vəzifəsinə irəli çəkilmiş M.Qorbaçovu Heydər Əliyevin idarəçilik bacarığı, onun rəhbərliyi ilə həyata keçirilən yüksək səviyyəli işlər, əldə olunan nailiyyətlər narahat edir. Bir tərəfdən Heydər Əliyevi SSRİ-yə rəhbərlik məsələsində özünə ən güclü rəqib görən, digər tərəfdən himayədalarının marağına görə və o cümlədən həyat yoldaşının aldığı bahalı hədiyyələr səbəbindən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi planına Heydər Əliyevin imkan verməyəcəyini anlayan M. Qorbaçov hər vasitə ilə rəqibini vəzifə kürsülərindən uzaqlaşdırmağa səylər etmiş və buna pillə-pillə nail olmuşdur.

***Haşiyə***. *1985-ci ilin yanvar ayında 1984-cü ilin yekunlarının müzakirəsində uğurlu nəticələrklə dolu BAM məsələsi ilə bağlı Heydər Əliyevin Sov.İKP.MK Siyasi Bürosunda çıxışı müsbət qiymətləndirildikdən iki ay sonra - 1985-ci ilin martında M.Qorbaçovun Sov.İKP MK Baş katibi seçilməsi ilə bütün ölkədə cərəyan edən "yenidənqurma" işləri Rusiya üçün mühüm əhəmiyyət daşıyan işlərdə, o cümlədən BAM tikintisi strateji layihəsində böhrana səbəb olur.*

*Davamda SSRİ "baş katib"-i Heydər Əliyevin "Əmək kollektivləri haqqında Qanun" proqramına, eləcə də BAM quruculuğunun tamamlanmasına məqsədli olaraq əngəl törədir, həmçinin onun nitq və çıxışlarındakı aydın, obyektiv həqiqi fikirlərindən qorxur, təmkinli, mədəni, yüksək etik keyfiyyətlərə malik Heydər Əliyevin qarşısında özünü cılız hiss edirək, əsas məsələ, Heydər Əliyevin SSRİ-yə rəhbərlik etmək üçün böyük qüdrətini anlamış və ancaq qəbul edə bilməyərək birmənalı surətdə xalqın içindən çıxmış və ümumxalq mənafeyini qorumağa qadir dahi milli Liderin zəhməti üzərindən xətt çəkməyə çalışmış, ona fəaliyyətində maneələr yaratmışdır.*

*M.Qorbaçovun Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən, SOV.İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən könüllü istefasına nail*

*olduqdan sonra Dağlıq Qarabağ məsələsinin ermənilərin xeyrinə həll edilməsi SSRİ planının işlənilməsinə start verməsi və digər faktlar bu fikrimizi təsdiqləyir.*

Beləliklə, Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermişdir. Heydər Əliyevin 1990-cı ilin 20 yanvar tarixində Sovet Ordusunun əliyalın Azərbaycan xalqına qəddarcasına divan tutmasına etiraz olaraq ‘’Cəsarətliliyinin” SSRİ Nazirlər Sovetindəki yüksək vəzifəsindən, Siyasi Büro və Sov. İKP MK üzvlüyündən azad edilməsi kimi “nəticələrinə” baxmayaraq-X. Q.) faciədən 2 gün sonra, səhhəti ilə bağlı sanatoriyada olduğu halda Moskvada Azərbaycan SSR-in daimi nümayəndəliyinə gedərək M. Qorbaçovun birbaşa göstərişi ilə həyata keçirilmiş bu tarixi əsl terror hadisəsi ilə bağlı verdiyi kəskin Bəyanatla Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. Heydər Əliyev 1991-ci ilin iyulunda Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, Sovet İttifaqı Kommunist Partiyasının sıralarını da tərk etmişdir.

Heydər Əliyevin Kommunist Partiyasının tarixi boyu onun üzvlüyündən 4-cü nüfuzlu yüksək siyasi şəxs olaraq imtina etməsi onun bütün siyasi reallıqları arxada qoyaraq xalqı ilə həmrəyliyini təsdiq edirdi.

***Haşiyə***. *“Heydər Əliyev. Tale yolları” kitabının müəllif Nikolay Zenkoviç SSRİ-nin yüksək hakimiyyət kürsüsündə xüsusi yer tutan Heydər Əliyevin dövrün ən nüfuzlu “bileti”dən -Sov.İKP üzvlüyündən imtina etməsinin 3 əsas səbəbinə diqqət yönəldərək qüdrətli siyasətçinin öz fikirlərini misal gətirməklə onun əslində milli vətənpətvər şəxsiyyətini işıqlandırır: “...Üç Səbəb. Birinci səbəb. Hələ 1990-cı il yanvarın 20-də Mərkəzin və Azərbaycan KP MK-nın siyasi rəhbərliyi altında Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzdən sonra məndə Sov.İKP sıralarından çıxmaq fikri yarandı. Yanvar hadisələrində yüzlərcə günahsız dinc sakin öldürüldü və şikəst edildi, onların arasında qocalar, qadınlar və uşaqlar da var idi". Bu antihumanist, konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən Sov.İKP MK və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid bağlayırdım. Özümü ələ alıb səbirlə gözlədim. Çıxışlarıma cavab əvəzinə çox çəkmədi ki, "Правда”dan başlayaraq partiyanın mətbu orqanlarında mənə qarşı hücumlar təşkil edildi. Mənə qarşı yönəlmiş uydurma faktları əsaslandırılmış şəkildə elə həmin kütləvi informasiya vasitələrinin özlərindəcə təkzib etmək cəhdlərim boşa çıxdı. Yenidənqurmanın əsas nailiyyəti olan “aşkarlıq” özünü birtərəfli göstərirdi...”*(Zenkoviç

Nikolay “Heydər Əliyev Tale yolları” file: (///C:/Users/user/Downloads/Heyder_EliyevTale-yollari.pdf).

Heydər Əliyevin Sov. İKP sıralarından imtina edərək çıxması səbəblərinin İkincisi əsası da onun xalqının tarixi torpaqlarına əsl vətənpərvər münasibəti ilə bağlı olmuşdur.

***Haşiyə***. *Heydər Əliyev:* “Üç ildən artıqdır ki, Mərkəzin ikiüzlü siyasəti nəticəsində Sov. İKP MK-nm havadarlıq etdiyi erməni millətçilərinin səyi ilə Azərbaycanın Dağlıq Qarabağ vilayətində yaranmış kəskin münaqişəli vəziyyət saxlanmaqdadır. Vilayət əslində tamamilə Azərbaycanın dövlət idarəçiliyindən çıxıbdır. Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü konstitusiyaya zidd olaraq kobud şəkildə pozulubdur. Ermənistan və Azərbaycan arasında elan edilməmiş müharibə gedir, demək olar, hər gün iki tərəfdən də adamlar ölür. Bütün bunlar “humanist ideologiyalı» sovet dövləti üçün adi haldır. Əminəm ki, partiya rəhbərliyi istəsəydi, 1987-1988-ci illərdə üzdəniraq Qarabağ problemi ətrafında milli münaqişə təzə başlayanda onun qarşısını ala bilərdi, getdikcə güclənən qarşıdurmaya və həm Azərbaycan, həm də erməni xalqına ağır fəlakət və müsibətlər gətirmiş bu qırğınlara imkan verməzdi. Deməli, siyasi Mərkəzə bu münaqişə lazımdır»”(Zenkoviç Nikolay “Heydər ƏLİYEV Tale yolları” file: (/C:/Users/user/Downloads/Heyder_EliyevTaleyollari.pdf).

*Heydər Əliyevin öz dərin mühakimə dili ilə əsaslandırdığı səbəblər sırasında Üçüncü, yekun nəticə xarakterli səbəb isə artıq istər mahiyyət etibarı ilə, istərsə də zahirən belə böyük tarixi şəxsiyyətin on illər boyu pillə-pillə sistemləşdirib inkişaf etditdiyi Azərbaycanın müstəqil dövlət statusu qazanması arzu və məqsədini aydın surətdə əks etdirir. ”Üçüncü səbəb. «Bütün cəmiyyətin demokratikləşdiyi, siyasi azadlıqların və plüralizmin bəyan edildiyi bir dövrdə Azərbaycanda 1988-ci ildə ərazi bütövlüyünün müdafiəsinə qalxmış geniş demokratik hərəkat və cəmiyyətin demokratikləşməsi Sov. İKP MK-in rəhbərliyi altında Azərbaycan KP MK-nın səyi ilə boğulur. Bu illərdə nə qədər adam siyasi fəaliyyətinə görə repressiyalara məruz qalıb. İl yarımdır ki, Azərbaycanın iki milyonluq paytaxtı heç bir əsas olmadan fövqəladə vəziyyət rejimində yaşayır. Məhz belə bir şəraitdə respublika Ali Sovetinə üzdəniraq “demokratik seçkilər” və nəticələri İttifaqın xeyrinə irəlicədən həll olunmuş referendum keçirilmişdir. Fövqəladə vəziyyət şəraitində hər hansı demokratikləşməyə və xalqın öz iradəsini sərbəst ifadə etməsinə ümid bağlamaq avamlıq olardı. Demokratik təşkilatlar dəfələrlə seçicilərin mütləq əksəriyyətinin referendumda iştirak etməməsi və referendumun nəticələrinin saxtalaşdırılması barədə məsələ qaldırmışlar. Ancaq Azərbaycanın kommunist rəhbərliyi bu müraciətlərə hətta baxmağa belə lüzum görməyib”; “Hər hansı suveren dövlətin tərkibində bir neçə suveren dövlət və eləcə də bundan irəli gələn*

*azadlıqlar, səlahiyyətlər və funksiyalar ola bilməz” (Zenkoviç Nikolay “Heydər Əliyev Tale yolları” file:* (/C:/Users/user/Downloads/Heyder_EliyevTaleyollari.pdf).

Sovet İmperiyası rəhbərlərinin xalqımıza qarşı ədalətsiz və qəddar münasibətinə etiraz olaraq yüksək vəzifəsindən istefa verib Rusiyadan ayrılaraq vətənə dönən Heydər Əliyev doğulub böyüdüyü Naxçıvan Muxtar Respublikasına gedib həmvətənlilərinin əhatəsində yaşadığı 3 il kimi qısa bir vaxtda böyük dövlət quruculğu işlərini həyata keçirmişdir.

Belə ki, yüksək müdriklik xislətinə malik görkəmli dövlət xadimi Heydər Əliyev 1990-cı ilin iyul ayının 22-də Naxçıvana gəldikdən sonra vətəndaşlıq məsələsini düşünür. Heydər Əliyevin bu qərarı 1990-cı il 21 avqust tarixində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının (MSSR) Ali Sovetinin Rəyasət Heyəti “Heydər Əliyevin Naxçıvan MSSR vətəndaşlığı barədə” qərarı ilə reallaşır və o, Azərbaycan vətəndaşlığı alır.



Bu bir həqiqətdir ki, tarixi şəxsiyyətlərin həyatı, fəaliyyəti üçün zaman şərt deyil. Əsas amal, ideya və məqsəd, bu qayəni idarə edən daxili enerji və qüvvədir. Bu baxımdan Heydər Əliyevin bir ay sonra -1990-cı il 30 sentyabr seçkilərində Nehrəm seçki dairəsindən Azərbaycan SSR-nin xalq deputatlığına, Naxçıvan Trikotaj Fabriki kollektivi tərəfindən isə Naxçıvan MSSR-in xalq deputatlığına seçilməsi xarakterik qarşılanır.

Cəmi 4 ay ərzində müdrik siyasəti ilə tarixyüklü mühüm işlərə imza atan Naxçıvan Muxtar Respublikası vətəndaşlarının çoxsaylı ciddi sosial problemlərini həll edən və yaddaşlarda əbədiyyət qazanan Heydər Əliyev 1990-cı ilin noyabrın 17-də artıq deputat kimi 12-ci çağırış Naxçıvan MSSR-in Ali Məclisinin ilk sessiyasına qatılarkən müstəqil

Azərbaycan dövlətinin qurucusu missiyasına başlamış, SSRİ-nin dağılmağına hələ təxminən 1 il qaldığı və totalitar rejimin davam etdiyi bir vaxtda sədrliyi ilə keçirilmiş sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək Naxçıvan Muxtar Respublikası adlandırması kimi tarixi qərar qəbul olunmuşdu.

Bununla birlikdə Sessiyanın Naxçıvan MSSR Ali Sovetinin adını dəyişərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırması, Azərbaycan Respublikasının milli istiqlal rəmzi olan Üçrəngli Dövlət Bayrağının bərpası, onun Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi tanınması haqqında qəbul olunmuş qərarlar artıq öz məzmun və mahiyyətinə görə Heydər Əliyevin rus imperiyası üzərində siyasi qələbəsi idi.

Hələ Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Üçrəngli Dövlət Bayrağının Azərbaycan SSR Ali Sovetinin qarşısında bütünlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırması onun milli lider olaraq mətin və cəsarətli siyasi addımları kimi unudulmaz hadisədir.

Ulu öndər Heydər Əlyev Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə Rus Sovet İmperiyasının siyasi rəhbərliyinin göstərişi ilə Qızıl Ordunun xalqımızın dinc, suveren, müstəqil dövlət arzularına qarşı çıxaraq törətmiş olduğu 20 yanvar faciəsinə siyasi Lider, həmçinin də vətən övladı olaraq qiymət verilməsi məqsədilə "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsi hazırlamış və bu vətənpərvər siyasi sənədi 1990-cı il, noyabr ayının 21-də Naxçıvan MR Ali Məclisi qəbul etmişdir. Bundan başqa Heydər Əliyevin hazırladığı "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyətə münasibət haqqında" Naxçıvan MR Ali Məclisinin 1990-cı il 14 dekabr tarixli qərarı xüsusi əhəmiyyət kəsb edir.

Heydər Əliyev ömrünün ixtiyar dövrü- yuvarlaq 70 yaş həddində çox yüksək vəzifələrdə çalışmışdı. Elə 1990-cı ildə doğma vətəni Azərbaycana Rusiyadakı yüksək dövlət postundan imtina edib gəlmişdi. Böyük dünya siyasətçisinin 1991-ci ildə vəzifə staji Naxçıvan MSSR-in Daxili İşlər Xalq Komissarları Sovetində məxfi arxiv şöbəsinin müdiri olduğu 1941-1943–cü illərdən çıxış edərək konkret desək, düz 40 il idi. Bu baxımdan Heydər Əliyevin zəfəri xalqın ona olan böyük inamı, ən əsas da əsl hədəfə - illər boyu sistemləşdirdiyi Müstəqil Azərbaycan Dövlətinin quruculuğu məqsədinə doğru istiqamət alması idi. Hüquqi qaydada NMR-nın Ali Məclisinin sədri seçilən Heydər Əliyev elə həmin il Azərbaycan Ali Sovetinin sədr müavini seçilmiş, bu vəzifədə 1993-cü ilin 15 iyun tarixinə kimi fəaliyyət göstərmişdir. Heydər Əliyevin bu dövrdə həyata keçirdiyi tarixi əhəmiyyəti olan işlərdən biri də 1992-ci ildə Yeni

Azərbaycan Partiyasını yaratması və Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilməsidir..

3 sentyabr 1991-ci il təkcə Heydər Əliyev və həmçinin onun həmvətənləri üçün deyil, bütün Azərbaycan xalqı üçün qiymətli tarixi təqvimdir. Beləki, məhz NMR-nin minlərlə vətəndaşının küçələrə çıxaraq günlərlə davam edən mitnqlərində kütləvi tələbləri ilə 1991-ci ilin 3 sentyabr günündə Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası çağırılmış və bu sessiyada Heydər Əliyev yekdilliklə Naxçıvan MR Ali Məclisinin sədri seçilmişdir.

Ali Məclis sədri seçilməsi 20 il fasiləsiz SSRİ Ali Sovetinin deputatı olmuş, dörd dəfə daxil olduğumuz SSRİ məkanının ən möhtəşəm təltifi - Lenin ordeni, Qırmızı Ulduz ordeni və bir sıra xarici dövlətlərin ordenləri və çox adda medalları ilə təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bu baxımdan da gözü-könlü tok bir şəxsiyyətə, Heydər Əliyevə deyil - SSRİ kimi nəhəng quruluşun necə deyərlər, xırda mexanizmlərinə qədər dağıldığı, Azərbaycanın, o cümlədən keçmiş Müttəfiq respublikaların siyasi müstəqillik əldə etdiyi, lakin formalaşmadığı və həmçinin Naxçıvanın faktiki olaraq blokadada olduğu bir mərhələdə xalq üçün zəruri idi. Qonşu dövlətlərlə iqtisadi-siyasi münasibətlərin yaranması, mühüm danışıqların aparılması, digər tərəfdən sanballı kürsüdən nüfuzlu siyasətçi, güclü liderin müraciətləri ölkənin hərtərəfli inkişafını, xalqın rifahını müəyyənləşdirirdi.

***Haşiyə.***Sovet dövrünün məşhur siyasi simalarından Nikolay Baybakov: “Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram”. Doğurdan da müstəqilliyin ilk aylarında, keçid dövrünün ən gərgin vaxtında və blokada vəziyyətində olan xalqı gərək o qədər sevəsən ki, onu düşünüb, addım atasan. Beləcə, Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri kimi ciddi səylər nəticəsində qısa müddətdə qonşu dövlətlər olan Türkiyə və İran İslam respublikası ilə əlaqələr quraraq Sədərək rayonunda Azərbaycanla Türkiyə arasında Araz çayı üzərində “Ümid” adlanan körpünün yaradılması ideyasını irəli sürmüşdür. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi və həmrəyliyinin simvolu kimi Ümid körpüsünün müvəqqəti açılışı, 1991-ci il, 29 oktyabr tarixində, tam açılışına isə 1992-ci ilin 28 mayında isə tam açılışına nail oldu ki, hər iki tarix Türkiyə və Azərbaycanın Respublika günlərini ifadə etməklə dərin məna kəsb etməkdədir (https:// azertag. az/xeber /suleymandamiralheydaraliyev -363340). Bundan başqa Heydər Əliyevin uzaqgörənliyi və şəxsi təşəbbüsü ilə 1992-ci il 22-25 mart tarixində Türkiyə Cümhuriyyəti tərəfindən Naxçıvan Muxtar Respublikasına (Baş nazir Süleyman Dəmirəlin köməyi ilə) 100 milyon dollar məbləğində kredit ayrılması və hər il 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə Əməkdaşlıq Protokolu imzalamışdır.



***Heydər Əliyev – Süleyman Dəmirəl dostluğunun Naxçıvan dövrü***

***1992-ci ilin 28 mayında Türkiyə və Naxçıvan arasında Sədərək–Dilucu körpüsünün açılması muxtar respubli-kanın həyatında yeni böyük bir hadisə olmaqla yanaşı, iqtisadi blokadanın ya-rılmasında mühüm addım oldu. Hec də təsadüfi deyil ki, körpünün rəsmi açılış mərasimində Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəlin başçılı-ğı ilə 150-dən artıq nazirlərdən, yüksək çinli məmurlardan və ziyalılardan ibarət nümayəndə heyəti iştirak etmişdi. Bu körpü iki qardaş xalqın uzun illər qovuş-maq arzusunu yerinə yetirdiyindən xalq arasında "Ümid körpüsü", "Həsrət kör-püsü" adlandırılmışdı.***

*(https://xalqqazeti.az/az/siyaset/130447-heyder-eliyev-suleyman-demirel-dostlugunun-naxcivan-dovr)*

1992-ci il 22-26 avqustda Heydər Əliyev İran İslam Respublikasına səfər etmiş, ali dini lider Ayətulla Xamneyi və İran İslam Respublikasının prezidenti Əli Əkbər Rəfsəncani, habelə digər rəsmi şəxslərlə görüşmüşdür. Bu səfərin nəticəsi olaraq Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlığa dair protokollar imzalamışdır. 1992-ci ildə İran və Türkiyə ilə bağlanmış əməkdaşlıq müqavilələri əsasında Sədərək, Culfa və Şahtaxtı keçid məntəqələri yaradılmışdır. Bundan əlavə, Naxçıvan şəhəri yaxınlığında İstilik-Elektrik Stansiyası tikilmişdir. İran İslam Respublikasından və Türkiyə Respublikasının İğdır vilayətindən 92 kilometrlik bir məsafədən yüksək gərginlikli elektrik xətlərinin Naxçıvana çəkilməsi başa çatdırılmışdır ki, bu da Naxçıvanın elektrik enerjisinə olan ehtiyacını əsasən ödəmiş olmuşdur. Həmçiinin Heydər Əliyev Naxçıvanda olarkən dünyaya səpələnmiş həmmillətlərimizi əbədiyaşar çıraq-Azərbaycanımızın başına toplamaq üçün 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik gününü təsis etmişdir. Heydər Əliyev hətta Bakıdakı səriştəsiz hakimiyyətin əvəzinə Naxçıvan Ali

Məclisində ölkə sərhədlərinin bərpası, Dağlıq Qarabağ torpaqlarının işğaldan azad olunması məqsədilə komissiyanın yaradılmasının təşəbbüskarı olmuş və Naxçıvan Ali Məclisindən bütün dünyaya Dağlıq Qarabağ həqiqətlərinin çatdırlmasını həyata keçirmişdir. Bütün bunlar Naxçıvanda cərəyan etsə də təbii olaraq Azərbaycanın paytaxtı Bakıda əks-səda doğururdu və ən əsası 1993-cü ilin may-iyun aylarında Azərbaycanda cərəyan edən siyasi hadisələr ölkədə vətəndaş müharibəsini alovlandırmaqla keçid dövründə olan gənc dövlətimizin müstəqilliyini itirmək təhlükəsini reallaşdırdıqda o vaxtın siyasi hakimiyyəti idarəçiliyə qadir olmadığını anlayaraq və xalqın sürəkli tələblərini qəbul edərək Heydər Əliyevi dərin ictimai-siyasi, sosial-mədəni böhranın qarşısını alması, ölkənin idarə etməsi üçün Hakimiyyətə çağırmışdı, daha doğrusu rəhbər işçilər Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur olmuşdular.



***Ulu öndər Heydər Əliyev və Naxçıvan***
***Heydər Əliyev yüksək vəzifələrdə çalışdığı illərdə də Naxçıvanı daim diqqət mərkəzində saxlayıb***
(https://azertag.az/xeber/Ulu_onder_Heyder_Aliyev_ve_Naxchivan-2127854)

Beləliklə, Heydər Əliyev Azərbaycanı qorumaq, xalqın qarşılaşdığı sosial-siyasi və iqtisadi problemləri aradan qaldırmaq, dövlətin dünya siyasi arenasında nüfuzunu qaldırmaq, habelə İşğal altında olan vətən torpaqlarını azad etmək məramı ilə Bakıya gəldi və 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə AR Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Bu

baxımdan Azərbaycan Dövlətinin rəsmi tədbirləri sırasında hər il xüsusilə qeyd olunan 15 iyun Qurtuluş günü Azərbaycan tarixi və eləcə də Azərbaycan xalqı üçün ən önəmli yaddaş səlnaməsidir. Gənc müstəqil dövlət olan Azərbaycan Respublikasının taleyində belə tarixi günlərdən biri də 1993-cü il oktyabrın 3-dür. Beləki, Heydər Əliyev 3 oktyabr 1993-cü ildə ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident seçilərkən Müqəddəs Qurani-Kərim kitabımızı öpüb And içən tarixi şəxsiyyət Heydər Əliyev hakimiyyətə başladığı ilk gündən sabitlik, rifah, ölkənin sərhədlərinin qorunması və bərpası, bütövlükdə Azərbaycanın sivil, demokratik inkişafı strategiyasını həyata keçirməyə başladı.

***Haşiyə.*** *Heydər Əliyev 1993-cü il prezident seçkisi münasibətilə keçirilən Andiçmə mərasimində söylədiyi dərin məzmunlu nitqində gənc Azərbaycan dövlətinin xarici siyasətinin tərifini belə vermişdir: "Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin, eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü, xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Güman edirəm ki, bundan sonra görüləsi işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır" (*Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin Andiçmə mərasimində nitqi Bakı - "Respublika" sarayı, 10 oktyabr 1993-cü il (http://lib.aliyev-heritage.org/az/66679364.html*).*

*Ulu öndərin xarici siyasət proqramından, gənc müstəqil Azərbaycan Respublikasının 10 il müddətində ən qabaqcıl dövlətlərlə əlaqələrinin səmərəli surətdə inkişafından və ümumiyyətlə bu istiqamətdə əhəmiyyətli dərəcədə mühüm olan fəaliyyətindən bəhs edərkən onun ölkənin son dərəcə mürəkkəb, ağır vəziyyətində xalqın tələb və arzusu ilə, eyni zamanda mənsub olduğu dövlətin mənafeyini düşünərək milli dövlət quruculuğuna başladığı ilk gün – 15 iyun 1993-cü il tarixli nitqindən:*

*"Xarici siyasət sahəsində keçən bir il müddətində çox iş görülüb. Ancaq görüləsi işlər daha da çoxdur. Güman edirəm ki, Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Hansı dövlətin daxili quruluşu, daxili siyasəti hansı istiqamətdə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq. Birinci növbədə, bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır. Bu baxımdan Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr, şübhəsiz ki, respublikanın əhalisi tərəfindən bəyənilir. Qonşu İran İslam Respublikası ilə bizim münasibətlərimiz yaxşılaşdırılmalıdır, inkişaf etdirilməlidir. Rusiya çox böyük dövlətdir, bizim şimal qonşumuzdur. Şübhəsiz ki, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha yaxşı, daha geniş, səmərəli olmalıdır. Keçmiş*

*Sovetlər İttifaqına daxil olan, indi müstəqil dövlət olan bütün dövlətlərlə* - Ukrayna, Belarus, *Gürcüstan, Orta Asiya dövlətləri, Qazaxıstan, Baltikyanı dövlətlər, Moldova ilə biz daha geniş, qarşılıqlı əlaqələr yaratmalıyıq. Bizim üçün bu, çox lazımdır. Çünki bu dövlətlərlə bizim iqtisadi əlaqələrimiz, mədəni əlaqələrimiz, insani əlaqələrimiz uzun illər, yüzilliklərlə çox yaxın olub. Bu əlaqələri qırmaq olmaz, əksinə, inkişaf etdirmək lazımdır. Şübhə etmirəm ki, məhz belə siyasət Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasına və inkişaf etməsinə kömək edəcəkdir” (*Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin Andiçmə mərasimində nitqi Bakı - "Respublika" sarayı, 10 oktyabr 1993-cü il (http://lib.aliyev-heritag e . org/az/ 6667 9364.html).



Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqımıza ləyaqətlə xidmət etmiş, bütün güc və bacarığını Azərbaycan xalqının rifahına və milli dövlətçilik ideyalarının gerçəkləşdirilməsinə yönəltmişdir. O, özünün həyat amalı haqqında danışarkən demişdir: "İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız Sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

*(https://www.azerbaijan-news.az/az/posts/detail/tarixin-liderliyin-ve-xilaskarligin-heyder-eliyev-zirvesi-1651964402)*

Dövlətin iqtisadi siyasətinnin düzgün həllini tapması da Azərbaycanın qüdrətli Prezidenti Heydər Əliyevin dövlət quruculuğu platformasının əsas məqsədlərindən idi. Bu istiqamətdə 1994-cü ildə sentyabrın 20-də dünyanın 7 dövlətinin 11 neft şirkəti ilə Azərbaycan arasında "Əsrin Müqaviləsi" sənədi imzalandı. Neft Müqaviləsinin ölkənin necə bir mühüm iqtisadi siyasəti olduğunu bilmək üçün bu Müqaviləyə dünya neft şirkətlərinin 60 milyard ABŞ dollarını əhatə edən sərmayəsini yada salmaq kifayət edər. Bu vəsait yeni yaradılmış və inkişaf tarixinin keçid mərhələsini yaşayan gənc bir resbublikanın inkişafını, sabaha hesablanmış tərəqqisini ehtifa edirdi.

Bundan sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Azərbaycana Sovetlər vaxtı rəhbərliyi dövründən yaxşı tanış olan ölkənin neft yataqlarının yenidən geoloji təhlillərinin aparılması işləri başlanılmış, Günəşli, Şahdağ və başqa neft yataqlarının bu günki yüksək səmərəli fəaliyyəti həyata keçirilmişdir.

Yüksək siyasi peşəkarlığa malik milli lider Heydər Əliyev öz xalqının tarixi mədəni-mənəvi irsini də dünyaya tanıtmaq və hifz etmək məramı ilə mühüm işlər həyata keçirmiş, məsələn, 1993-cü ilin dekabr ayından başlayaraq 200-ə yaxın dövlətin üzv olduğu YUNESKO(Azərbaycan 1992-ci ildən bu qurumun üzvüdür-X.Q) ilə müstəqil Azərbaycan Respublikasının əlaqələrinin inkişafının təməlini qoymuşdur. Heydər Əliyev həmin tarixdə Fransada rəsmi səfərdə olarkən YUNESKO-nun baş direktoru, hələ 10 il əvvəldən -1983-cü ildə YUNESKO xətti ilə Bakıda Şərq xalçalarına həsr edilmiş birinci Beynəlxalq Simpoziumda tanış olduğu Federiko Mayorla Azərbaycanın müasir şəraitdə inkişaf perespektivləri və eləcə də Dağlıq Qarabağ münaqişəsi, qaçqın və köçkünlərin dərin problemləri, bütünlükdə cərəyan edən vəziyyətin mədəni sahədə, o vümlədən elm-təhsil istiqamətində yaratmış olduğu çətinliklər və onların həlli yolları ilə bağlı fikir mübadiləsi etmişdir.

Görüşdə YUNESKO Nizamnaməsinə əsaslarla müəyyən olunan prinsipləri rəhbər tutan Azərbaycan prezidenti Heydər Əliyev ölkəyə qayıtdıqdan sonra bu mötəbər qurumla əlaqələrin rəsmi səviyyədə qurulması məqsədi ilə Xarici İşlər Nazirliyinin nəzdində Milli Komissiyanın yaradılması üçün müvafiq tapşırıqlar vermiş və 21 fevral 1994-cü il tarixində bu məzmunda imzalamış olduğu sərəncama əsasən Milli Komissiyanın 25 nəfərlik tərkibi və daimi katibliyi formalaşdırılmışdır .

Rəsmi əlaqələrinuğurlu nəticəsi olaraq YUNESKO ilə Azərbaycan Respublikası arasında əlaqələr inkişaf etdirilərək klassik Azərbaycan ədəbiyyatının dahi nümayəndəsi Məhəmməd Füzulinin 500 illik yubileyi ilə bağlı 1996-cı ilin Məhəmməd Füzuli ili elan olunması və

habelə dünyanın bir çox ölkələrində şairin yubileyinin qeyd edilməsi tədbirləri həyata keçirilmişdir.

Dahi Füzulinin anadan olmasının 500 illik yubileyinə həsr edilmiş tədbirdə çıxış edən Heydər Əliyev siyasətçi natiqliyi ilə barabər, həm də əsl füzulişünas kimi şairin dünya mədəniyyətində yerini, onun söz xəzinəsinin bu gün və gələcək üçün əhəmiyyətini dəyərləndirmişdir.

1995-ci il noyabrın 12-də referendiumda qəbul edilib və 1995-ci il noyabrın 27-də qüvvəyə minmiş Azərbaycan Respublikasının Konstitusiyasının xalqın yaddaşında əbədiyaşarlıq qazanması üçün 12 noyabr Azərbaycan Respublikası Konstitusiyası gününün, 17 noyabr Milli dirçəliş gününün və beləcə onlarla rəsmi gün, bayramın təsis olunması, yubileylərin keçirilməsi haqqında sərəncamlar da Heydər Əliyevin dövlət quruculuğu siyasətinin uğurlu nəticələrini təsdiq edir.

***Haşiyə. Azərbaycan Respublikaının Prezidenti cənab İlham Əliyevin Ulu öndər Heydər Əliyevin 90 illik yubileyindəki nitqindən:***

*"Azərbaycan xalqı bir daha öz müdrikliyini göstərərək Ulu öndərə üz tutdu, ona müraciət etdi və onu hakimiyyətə dəvət etdi. Hətta o vaxt Azərbaycanın rəhbərliyində yüksək vəzifələr tutan və vaxtilə Heydər Əliyevə qarşı təxribatlar törətməyə cəhd edən, Naxçıvana desant göndərmək istəyən antimilli qüvvələr də öz canlarından qorxaraq Heydər Əliyevi dəvət etmişdilər. Çünki onların öz taleyi artıq təhlükə altında idi. Mən o günləri yaxşı xatırlayıram. Naxçıvanlılar Heydər Əliyevi buraxmırdılar, qoymurdular ki, getsin. Ancaq Vətəni, Azərbaycan xalqını sevən dövlət adamı kimi onun demək olar ki, seçimi yox idi. O, Bakıya gəldi və o vaxt Bakıda gedən proseslər hamımızın yaxşı xatirindədir. Vətəndaş müharibəsinin dayandırılması birinci məsələ idi. Ona nail oldu. Ondan sonra - Azərbaycanda müəyyən dərəcədə sabitlik yaranandan sonra böyük islahatlara başladı. Demək olar ki, 1993-cü il müasir tariximizdə həlledici dönüş nöqtəsidir. Tam qətiyyətlə deyə bilərəm ki, əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsəydi, bugünkü Azərbaycanın mövcudluğu hətta şübhə altına düşə bilərdi" (Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə İlham Əliyevin nitqi* (http://www.president.az/articles/8098).

1993-1998-ci illərdə ölkəmizin inkişafı məqsədilə həyata keçirilmiş onlarla, yüzlərlə tarixyüklü quruculuq işləri Azərbaycanın dünya miqyasında tanınmasına, sayılıb seçilməsinə təkan verməklə bərabər, dövlət-xalq, xalq-lider münasibətlərini də gücləndirmiş və Azərbaycan xalqının tarixi şəxsiyyəti, bütün təbəqədən olan vətəndaşların inandığı, güvəndiyi Heydər Əliyev 1998-ci il oktyabrın 11-də yüksək ümumxalq fəallığı şəraitində keçirilən

seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

1999-cu ilin noyabrında İstambulda ATƏT-in sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Türkmənistan və Qazaxstan Respublikalarının başçıları Baki-Ceyhan neft kəmərinin yaradılmasına dəstək olduqlarını təsqiq edən Sənəd imzaladılar. Lakin sonradan 3 dövlət bu Layihənin yaradılmasında sona qədər təşəbbüsçü olaraq qaldı. Əslində həmin layihəyə qədər mövcud olan Supsa və Novorasiyysk kəmərlərinin çəkilişinə də birbaşa Heydər Əliyev təminat vermişdi... Belə ki, Bakı-Supsa və Bakı-Novorasiyysk neft kəmərləri də dövrünün ən güclü siyasətçisinin sayəsində inşa edilmişdi. Ümumiyyətlə, Heydər Əliyevin Neft Siyasəti onun Azərbaycana rəhbərlik etdiyi 70-ci illərdən sistemləşmişdi. Heydər Əliyev hələ sovet idarəçiliyi zamanında öz ölkəsinin, xalqının taleyini düşünərək Dənizdə Dərin Özüllər zavodunun məhz Azərbaycanda yaradılmasına nail olmuşdu. Halbu ki, Rusiya bu zavodu Həştərxan vilayətində qurmaq niyyətində idi. Maraq çəkən bir faktı da diqqətə çatdırmaq yerinə düşər. Bu Cənubi Qafqaz regionu üçün ciddi təhlükə mənbəyi olan Ermənistanın Metsamor Atom Elektrik Stansiyasını SSRİ hakimiyyəti Azərbaycanın Nəvahi adlanan ərazisində yaratmaq istədikdə Heydər Əliyev buna 2 dəfə ciddi surətdə mane olmuş və nəticə göz qabağındadır ki, çox təhlükəli, hətta bağlanması dəfələrlə tələb olunan bu stansiya Azərbaybcandan uzaqda yerləşir. Heydər Əliyevin 1999-cu ildə yaradılmasına nail olduğu daha bir əhəmiyyətli sahə Azərbaycan Neft Fondudur ki, bununla yeni müstəqil dövlətimizin iqtisadi bünövrəsi qoyulmuşdur.

Azərbaycan milli-mədəni irsinin qorunması və mənəvi əsaslarımızın dünyaya tanıdılmasına Milli dövlət, Milli lider məqsədi kimi baxan Heydər Əliyev 1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi haqqında fərman imzalamış və bu rəsmi sənədə, onunla müəyyən olunan məsələlərə YUNESKO da öz növbəsində diqqət ayıraraq "Kitabi Dədə Qorqud Dastanının" 1300 illik yubiley tədbirlərinim 2000–ci ildə Drezdendə, Moskvada, Türkiyənin müxtəlif şəhərlərində, həmçinin Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsini rəsmi olaraq həyata keçirmişdir. Böyük türk ailəsinin ədəbiyyat, mədəniyyət, din. əxlaq, hüquq, siyasət təfəkkürünün tarixi-mənəvi salnaməsi "Kitabi-Dədə Qorqud" dastanına milli lider Heydər Əliyevin verdiyi yüksək dəyər onun 1300 illiyinə həsr olunmuş beynəlxalq tədbirlər proqramını 2000-ci ilin aprelində Bakıda məhz Türkdilli Dövlətlər Birliyinin VI zirvə toplantısına dəvət olunmuş dövlət başçılarının iştirakı ilə yekunlaşdırmasında da öz ifadəsini tapmışdır.

Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevin siyasi hakimiyyətdə ilk peşəkar Lider xidmətləri sırasında böyük əhəmiyyət kəsb edən hadisələrdən biri də Azərbaycanı beynəlxalq aləmlə birləşdirən və ölkə iqtisadiyyatının inkişafının güclənməsinə hesablanan "Tarixi İpək Yolu"nun bərpası layihəsi olmuşdur.

**Haşiyə.** *"Heydər Əliyevin tarixi "İpək yolu" nun bərpası sahəsindəki böyük təşkilatçılıq fəaliyyətinin və nüfuzunun nəticəsi olaraq 2000-ci ilin mart ayının 10-u və 11-i tarixlərində Gürcüstanda keçirilmiş konfransda TRASEKA Hökumətlərarası Komitəsinin Daimi Katibliyinin Bakıda açılması qərara alındı. 2001-ci ilin fevralın 21-də TRASEKA Hökumətlərarası Komitəsinin Daimi Katibliyinim Bakıda rəsmi açılışı oldu. Açılışda İsveçin xarici işlər naziri, Avropa İttifaqına sədrlik edən ölkənin təmsilçisi xanım Anna Lind, Avropa İttifaqının Baş katibi, Ümumi Xarici və Təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Havyer Salano və Avropa Şurasının xarici əlaqələr üzrə Komissarı Kristofer Patten iştirak etmişdir. Mərasimdə çıxış edən ölkə Prezidenti Heydər Əliyev Avropa İttifaqı tərəfindən görülən və TRASEKA proqramının həyata keçirilməsinə yönəlmiş işləri yüksək qiymətləndirmiş, eyni zamanda Azərbaycan Respublikası tərəfindən bunun gələcəkdə görüləcək böyük işlərin başlanğıcı hesab etmişdir. Həmin ilin iyul ayından Bakıda TRASEKA Daimi Katibliyində ekspert qrupu fəaliyyətə başlamışdır"* (İsakov T. Heydər Əliyev "Tarixi ipək yolu"nun bərpasının böyük təşkilatçısıdır http://az.strategiya.az/old/?m=xeber&id=13077).

*Beləki, TRASEKA proqramı və Bürüssel Bəyannaməsi əsasında Azərbaycan da daxil olmaqla mütəqillik əldə etmiş 8 ölkənin Dünya və Avropa bazarlarına alternativ nəqliyyat yolu ilə çıxmasını təmin etməklə onlara iqtisadi baxımdan olduğu kimi siyasi cəhətdən də dəstək olmaq məqsədi daşıyan tarixi "İpək Yolu" Layihəsi Heydər Əliyevin onillər boyu toplanmış, BAM kimi Rusiya tarixinin ən qlobal nəqliyyat problemini və onlarla belə tarixi hadisəni müdrik siyasətlə həyata keçirməklə təsdiqlənmiş peşəkar siyasətçi ideyasının tərkib hissəsi və təntənəsi oldu.*

*Bu layihə tədqiqatçıların da qeyd etdiyi kimi "Ümummilli lider Heydər Əliyev məqsədyönlü və kompleks tədbirlər həyata keçirməklə tarixi "İpək yolu"nun bərpası ideyasını xəyaldan reallığa çevirdi. Bu nəhəng layihənin gerçəkləşdirilməsi nəticəsində ölkəmizin geostrateji və geosiyasi əhəmiyyəti daha da artmış, Azərbaycan Şərqlə-Qərb arasında strateji körpü rolunu oynayan əlverişli tranzit əhəmiyyətli ölkəyə, Cənubi Qafqazın lider dövlətinə*

*çevrilmişdir-"* (İsakov T. Heydər Əliyev "Tarixi ipək yolu"nun bərpasının böyük təşkilatçısıdır http://az.strategiya.az/old/?m=xeber&id=13077).

*Heç də təsadüfi deyil ki, tarixi "İpək yolu"-nun bərpasını hakimiyyəti illərində ciddi və sistemli şəkildə həyata keçirən Heydər Əliyev Layihənin Mərkəzi ofisinin Bakıda yerləşməsinə nail olduğu tarixi "İpək Yolu" Fondunun fəxri sədri də seçilmşdir.*

Ulu öndər Heydər Əliyev "İpək yolu" kimi böyük tarixi əhəmiyyət daşıyan - Azərbaycan Milli Elmlər Akademiyasının adı ilə bərabər, taleyini həll edən bu gününə və əlbəttə ki, hələ qarşıda olan neçə-neçə onillikləri nəzərdə tutan gələcəyinə böyük ümidlər ifadə edən Fərman vermişdir. 2001-ci il, 15 may tarixli Fərmana əsasən "Azərbaycan Respublikasında milli elmi potensialın qorunub saxlanılması və gücləndirilməsi, xalqımızın tarixi və mədəniyyət ilə bağlı araşdırmaların müasir standartlar səviyyəsində aparılmasının təmin edilməsi, fundamental elmi tədqiqatların əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, elmi fəaliyyətin keçirilməsi üçün daha əlverişli şəraitin yaradılması məqsədilə Azərbaycan Elmlər Akademiyasının ali dövlət elmi təşkilatı olduğunu nəzərə almaqla Azərbaycan Milli Elmlər Akademiyası adlandırılması qərara alınmışdır" (Azərbaycan Milli Elmlər Akademiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 15 may 2001-ci il ., № 484 (http://www.e-qanun.az/framework/2992).

Eləcə də Ulu öndər Heydər Əliyevin bütün varlığı ilə Azərbaycan xalqına, onun tarixinə, milli mənəvi xəzinəsinə, müasir inkişaf yoluna bağlı nəhəng milli lider olduğunu əks etdirən əsas faktorlardan biri Dil siyasəti olmuşdur. Heydər Əliyev hələ 1977-1978-ci illərdə və 1995-ci ildə ilk Azərbaycan Konstitusiyasına Azərbaycan dilini dövlət dili kimi daxil etməklə, 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" imzalamış olduğu Fərmanla doğma ana dilinə yeni ruh verməklə bərabər, həm dövlət quruculuğunda xalq-millət- dövlət birliyini gücləndirdi və həm də ürəyi xalqa bağlı milli Lider olduğunu bir daha təsdiq etdi.

Azərbaycan Respublikasının 1996-cı ilin iyun ayında İnsan hüquq və azadlıqlarının ifadəçisi olaraq Avropa Şurasına "xüsusi qonaq" statusu ilə qəbul olunması, 2001-ci ildə artıq bu mötəbər qurumun həqiqi üzvi seçilməsi, habelə 125 beynəlxalq konvensiyanı və sazişi imzalaması da Heydər Əliyevin məhz müdrik Milli Lider fenomenini ifadə edir.

Daim vətəni, dövləti, xalqı düşünən Ulu öndər Heydər Əliyev Metsamor AET-nin bütün Qafqaz regionunda, həmçinin onun tullantılarının Dağlıq Qarabağ ərazisində yerləşdirilməsinin ölkəmiz üçün bəşəri təhlükə mənbəyi olduğunu dəfələrlə beynəlxalq səviyyədə bəyan etmiş, hətta 2002-ci ilin may ayında Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin baş direktoru, Nobel mükafatı laureatı Məhəmməd Mustafa əl Bərədai

Azərbaycana gəldikdə onunla görüşmüş və bu görüşdə Metsamor AES-nın bütün region üçün təhlükəli olmasını, eyni zamanda Ermənistanın stansiyanın nüvə tullantılarını işğal olunmuş Azərbaycan torpaqlarında basdırması, habelə Araz çayına tökməsi barədə haqlı ciddi narazılığını onun diqqətinə çatdırmışdı. Məhəmməd Mustafa Əl Bərədai Heydər Əliyevin həyacan təbili qaldırdığı bu problemi yaxın zamanda Atom enerjisi üzrə Beynəlxalq Agentlik səviyyəsisində qaldıracağına, ən əsas məsələ, stansiyanın çox qısa müddətdə fəaliyyətinin dayandıracağına söz vermişdir” (У кого Гейдар Алиев просил содействия в закрытии Мецамора? (http://www.vzglyad.az/%D0%A3_ %D0%BA %D0%BE %D0%B3%D0%BE_%D0%93%D0%B5%D0).

***Haşiyə****.* *Heydər Əliyev: “Əziz dostlar, siz bilirsiniz, məni yaşadan, məni siyasi uzunömürlü edən ən əsas amil odur ki, mən həmişə xalqın dəstəyinə arxalanmışam. Bəli, əgər 1993-cü ildə, o ağır dövrdə xalqın dəstəyi olmasaydı, mən Naxçıvandan Bakıya gələ bilməzdim. Əgər o vaxt xalqın dəstəyi olmasaydı, mən silahsız, heç nəsiz onların – azğınlaşmış terrorçu qrupların, silahlı dəstələrin, separatçıların, Azərbaycanı dağıdanların öhdəsindən gələ bilməzdim. Siz 1994-cü ilin oktyabr ayının 4-nü xatırlayın. Bəli, artıq ayağa qalxmışdılar, bizim hakimiyyəti boğurdular. Televiziya ilə mənim xalqa müraciətim gecə vaxtı iki saat içərisində yüz minlərlə insanı Prezident sarayının qarşısına topladı. Bax, o xalqın dəstəyi ilə mən çevriliş cəhdinin qarşısını aldım. O xalqın dəstəyi ilə 1995-ci ilin mart ayında mən o çevriliş cəhdinin qarşısını aldım. O xalqın dəstəyi ilə terroristlərin qarşısını ala bildim. Mən bu gün də xalqla bir yerdəyəm. Mənim həyatımın mənası xalqa xidmət etməkdir. Mən çox xoşbəxtəm ki, xalq da bunu qiymətləndirir, mənə lazımi qədər dəstək verir” (Heydər Əliyev Müstəqilliyimiz əbədidir.* (43-cü kitab, Azərnəşr-2013;http://files.preslib.az/projects/toplu/books/43.pdf). *Bu misalların sayını artırdıqca artırmaq mümkündür. Beləcə, xalqının, millətinin tarixi və müasir günləri ilə daim maraqlanan, hər hadisəni dəyərləndirən Heydər Əliyevin vətəndaşlıq hisslərini tamamlayan "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" - kəlamı və ondan ucalan böyük Azərbaycançılıq ideyası Ulu öndəri ömrünün sonuna kimi müşayət etdi.*

2003-cü il...

2003-cü ilin aprel ayının 21-də Cəmşid Naxçıvanski adına məktəbin yubiley tədbirində Heydər Əliyevin səhhətində ani olaraq ciddi dəyişikliyin baş verdiyi və sanki, onun özü ilə bərabər xalqının ona dərin sevgisinin sınaqdan çıxdığı hadisə baş verdi. Həmin tədbirdə gözəl nitqi ilə təkcə ölkənin ən böyük zalındakı insanları deyil, tədbirin birbaşa traslasiyası ilə izləyən milyonlarla Azərbaycan vətəndaşının diqqətini öz üzərinə cəmləmiş nəhəng milli lider -Ulu öndər Heydər Əliyev ani olaraq müvazinətini itirdi. Ancaq nitqini dayandırmadı. Davam

etdi. Həyəcanlı dəqiqələr ötdükcə gərginlik və ilahi enerji bir-birini əvəzləyir, xarizma onu müşayət edirdi. “Növbə” fiziki olana keçərkən onu təcili zaldan apardılar. Bu an sınaq zirvə nöqtəsinə qalxdı: Xalq və Liderin bir-birinə necə möhkəm tellərlə bağlı olduğu təsdiqlədi. Xalqın ruhu həqiqiliyini göstərdi. “İgid odur atdan düşə, atlana!”... Milli Lider Heydər Əliyev bu misalın əsl ideyasına uyğun tərzdə səhnəyə qayıdıb, nitqini davam etdirdi. Bu hamıya görə möcüzə, siyasi nəzəriyyə elminə görə isə xarizma anlamı,- inanc və imana bağlı fenomen və fenomen şəxsiyyətlərə xas bir hadisə idi. Bu hadisə eyni zamanda onun peşəkar lider keyfiyyətini ifadə edirdi. Belə ki, o adi, sıradan biri deyildi və fiziki gərginliyə “kürsünü” dəyişə bilməzdi. Elm də, tarixi təcrübə də təsdiq edir ki, belə vəziyyətdə səriştəsiz siyasətçi, məsuliyyət hissini unudan prezident kürsünü qoyub gedə bilər, amma qüdrətli siyasi lider öz nüfuzunu ani fiziki gərginliyə təslim etməz. Əsl Ulu öndər son nəfəsə qədər xalqa xidmətini davam etdirər!

O əsl Milli Lider- əsl Ulu öndər idi!

Heydər Əliyevin son nəfəsə qədər xalqının ona etimad etdiyi vəzifə kürsüsündə olduğunu, öz tarixi missiyasını yerinə yetirdiyini təsdiqləyən hadsələrdən biri də Azərbaycan-YUNESKO əlaqələrinin möhkəmlənməsi istiqamətində 2003-cü il 21 iyun tarixində mədəniyyət siyasəti üzrə milli debatların iştirakçılarına ünvanladığı Müraciətdir.

*Heydər Əliyev bu Müraciətdə hər bir xalqın mədəni irsinin onun milli sərvəti olmasını xüsusilə vurğulamış, Azərbaycan xalqının mədəniyyətinin dünyanın ən qədim mədəniyyətlərindən olduğunu, klassik şairlərimiz - Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi söz ustalarının və "Kitabi-Dədə-Qorqud" dastanı yubileylərinin YUNESKO xətti ilə yüksək səviyyədə qeyd edildiyini, İçərişəhər tarix-memarlıq qoruğunun "Dünya İrs Siyahısı"na salınmasını, milli mədəniyyətimizin zənginliyinin dünya ictimaiyyəti tərəfindən qiymətləndirilməsini fəxrlə yada salmış, Azərbaycan mədəniyyət nümunələrinin dünyaya tanıtdırılması, təhsilin, elmin inkişafı üçün YUNESKO*-nun *rolunun əvəzsizliyini, zəruriliyini xüsusilə olaraq qeyd etmişdir (Azərbaycan -YUNESKO əlaqələri* (http://lib.aliyev-heritage.org/az/3473502.html).

Eləcə də Heydər Əliyevin 2003-cü ilin 13 oktyabr tarixində Azərbaycan Respubliksı Gənclərinin Üçüncü Forumunu diqqətdə saxlaması və tədbir iştirakçılarına məktub ünvanlaması ounu xalqı ilə hər an həmrəy olduğunu göstərən faktdır. Bu məktub həmçinin ölkə gənclərinə Ulu öndərin dolğun məzmunlu nəsihət-vəsiyyəti kimi tarixi əhəmiyyət kəsb edir.

***Haşiyə. Heydər Əliyevin məktubundan:*** *“Bu gün Azərbaycan Respublikası öz tarixinin şərəfli və mürəkkəb bir dövrünü yaşayır. Azərbaycanın dövlət müstəqilliyinin və*

*suverenliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, o cümlədən işğal olunmuş torpaqlarımızın azad olunması, ölkə iqtisadiyyatının sürətlə inkişaf etdirilməsi, əhalinin sosial problemlərinin həll edilməsi, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutması yolunda görüləsi işlər hələ çoxdur. XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə görüləcək bu əzəmətli işlərin həyata keçirilməsinin əsas ağırlığı və məsuliyyəti isə bugünkü gənclərin üzərinə düşür. İnanıram ki, zəngin və dərin mənəviyyata sahib, vətənpərvər gəncliyi olan xalqımızın daha böyük, daha parlaq gələcəyi var. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətçiliyini yaşatmaq, onu qüdrətli etmək üçün siz, yüksək amallı Azərbaycan gəncləri daim hazır olmalısınız" (Azərbaycan Respubliksı Gənclərinin Üçüncü Forumuna məktub* (http-://files.preslib.az/projects/toplu/books/45.pdf ).

Bu məqamda Heydər Əliyevin özünəməxsus dil-üslubda, hər birində millilik, ənənə, tarixi keçmişimiz, vətən, milli-mənəvi dəyərlərimiz, xalqımızın milli azadlıq mübarizəsi, deməli, Azərbaycan və Azərbaycançılıq ideyası dolğun şəkildə əks olunmuş dərin mənalı cümlələrinin yer aldığı daha bir "son məktub"unu yada salmaq istərdik. Beləki, Ulu öndər Heydər Əliyev fiziki ömrünün axırlarında - "Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim"- deyib vətəni Azərbaycanı zirvələrə ucaldan xalq şairi, mahir söz ustadı Məmməd Arazı yada salmış, şairin yaradıcılığını məhz millilik, tarix-ənənə kontekstindən təhlil edib yüksək qiymətləndirmişdir. Bu təbrik məktubunda cəmlənən fikirlər onun xalqımızın əsl milli lideri - Ulu öndəri olduğunu bir daha və qeyd-şərtsiz təsdiqləyir. Tanış olaq: "Hörmətli Məmməd Araz! Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini anadan olmağınızın 70 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. ... Xalqın azadlıq arzusunu ədəbiyyatımızın böyük idealına çevirərək, onu yüksəklərə qaldıran əzəmətli poeziyanız vətən sevgisi, vətəndaşlıq amalı ilə səciyyələnir. ...Dövrümüzün sənət zirvəsinə yüksələn poeziyanız müstəqil Azərbaycanımızın bundan sonra da neçə-neçə nəslinə mənəvi saflıq və vətənpərvərlik ruhunun aşılanması işində əvəzsiz mənbələrdən biri olacaqdır. Sizə cansağlığı, xoşbəxtlik və yeni uğurlar arzu edirəm" (Heydər Əliyev Müstəqilliyimiz əbədidir (45-ci kitab. Bakı.Azərnəşr-2013) (http://files.preslib.az/projects/toplu/books/45.pdf). Nəhayət, Azərbaycanın yeni tarixinin dahi insanı Heydər Əlirza oğlu Əliyevin əziz xalqına, həmvətənlərinə ən Son Məktubu. Heydər Əliyevin 01.10.2003-cü il tarixli Azərbaycan Xalqına Müraciəti. Əziz xalqına, həmvətənlərinə, bir milli ideyada yumruq kimi birləşməyi nəsihət-vəsiyyət etdiyi Son Müraciəti onun Ulu öndərlik missiyasını layiqincə və hətta politologiya nəzəriyyəçilərinin elmi qənaətlərinə uyğun olaraq və bütünlüklə tamamladığını aydın surətdə ifadə edir.

Ulu öndərin xalqı qarşısında Hesabatı da demək olar bu Müraciətə. Onu Azərbaycanın müstəqil dövlət quruculuğunun əsl tarix səlnaməsi də adlandırmaq olar. Xalqına nəsihət-vəsiyyət ruhu da var bu Müraciətdə.

***Haşiyə. Heydər Əliyevin müdrik Lider düşüncələrindən seçmələr:***

*1. "Əziz həmvətənlər, hörmətli Azərbaycan vətəndaşları! Bu günlərdə mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə Prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız Sizə — bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib. Azərbaycan xalqı dünyanın ən qabaqcıl xalqları sırasında öz layiqli yerini tutub" (Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin Azərbaycan xalqına Müraciət* (http://files. Pre slib .az/ projects/toplu/v2/f3_13.pdf ).

*2. "Azərbaycanın iqtisadi həyatı yenidən qurulur, yüksək dinamizmlə dirçəlir və inkişaf edir. Ölkə iqtisadiyyatına daxili və xarici kapital qoyuluşu ildən-ilə artır, aqrar sahə, yeyinti və yüngül sənayesi modernləşir, iqtisadiyyatda qeyri-neft sektorunun payı yüksəlir, manatın sabitliyi qorunur, valyuta ehtiyatları artır, yeni-yeni yüksək maaşlı iş yerləri açılır. Bütün bunlar 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft və iqtisadi inkişaf strategiyasının nəticəsidir. Mən əminəm ki, biz belə davam etsək, qarşıdan gələn bir neçə ildə Azərbaycanda nə bir işsizə, nə bir kasıb insana rast gəlinəcəkdir. Maaşlar, təqaüdlər və insanların ümumi gəlirləri yüksələn sürətlə artacaq" (Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin Azərbaycan xalqına Müraciət* (http://files.preslib.az/projects/toplu/v2/f3_13.pdf ).

*3. "Yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən ərazi bütövlüyü və digər məsələləri həll etmək olar. Əminəm ki, bu məhz belə də olacaq" (Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin Azərbaycan xalqına Müraciət* (http://files.preslib.az/projects/toplu/v2/f3_13.pdf ).

*4. "Dövlətimiz getdikcə öz müdafiə qabiliyyətini artırır, hərbi cəhtdən güclənir. Milli ordumuz qabaqcıl təcrübə və texnologiyalara yiyələnir, gənclərimiz həvəslə xidmətə gedirlər" - (Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin Azərbaycan xalqına Müraciət* (http://files.preslib.az/projects/toplu/v2/f3_13.pdf ).

Ulu öndər  Müraciətdə bundan sonra sanki xalq və dövlət qarşısında imtahan verirmiş kimi bir-bir həyata keçirilmiş quruculuq işlərinin istiqamətlərini şərh edir. Bu siyasi proqramın sistemli bölmələrində hər bir dövlətin mövcudluğunun ilkin şərti-siyasi sabitlik, onun əsası olan milli birlik, bunun üçün isə ali şərt - qanunların gücü önə çəkilərək dəyərləndirilir və arzulanana nail olunması diqqətə çatdırılır. Daha sonra mühüm amil - iqtisadiyyat və üçüncüsü, "Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizi qura bilmişik, onun müstəqilliyinin dönməzliyini təmin etmişik (Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin  Azərbaycan xalqına Müraciət (http://files.preslib.az/projects/toplu/v2/f3_13.pdf) --iqtibasından ucalan ideyalar maarifləndirmə süzgəcindən keçirilərək yaddaşlara və habelə tarixin arxivinə, milli-mənəvi miras "fonduna" istiqamətləndirirlir.

***Haşiyə.*** *Bu məqalənin müəllifi Azərbaycan xalqının dahi şəxsiyyəti Heydər Əliyevin 2003-cü il Prezidentliyə namizədlik Qərargahının üzvü kimi Bakımın Nizami və Xətai rayonlarında onlarla məktəb və idarələrdə təbliğatında iştirak etmişdir. Unudulmaz  günlərdi. Xalq Heydər Əliyevin sağalması üçün dualar edir, onun 3-cü dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsini arzulayırdı. Hamının bir istəyi vardı, Heydər Əliyev tezliklə sağalıb fəaliyyətini davam etdirsin. Təbliğat kompaniyası ümumxalq tədbirləri kimi keçirilirdi. Bütün tədbir iştirakçıları söz alıb Ümummilli lider Heydər Əliyevin dövlətinə, xalqına sadiq bir insan, qüdrətli  Ulu Öndər olmasından fəxrlə danışırdı.*

İndi isə Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqına Müraciətindəki nikbin, hər şeydən razı-məmnun məzmunlu yekun hissədən seçmə iqtibaslarla tanış olaq:

"Yüz minlərlə insan seçki kampaniyasına qoşularaq mənim təbliğatımı aparır. Fürsətdən istifadə edərək bu insanlara, namizədliyimi irəli sürən və dəstəkləyən Yeni Azərhaycan Partiyasının bütün üzvlərinə, digər ictimai-siyasi təşkilatların nümayəndələrinə, elm, təhsil və mədəniyyət xadimlərinə, ziyalılara və mənə dəstək verən bütün Azərhaycan xalqına dərin təşəkkürümü bildirirəm. Ümidvaraın ki, tezliklə səhhətimi bərpa edərək Vətənə dönəcək, xalqımla yenidən birlikdə olacağam. İndi isə öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm" (*Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin  Azərbaycan xalqına Müraciət* (http://files.preslib.az/projects/toplu/v2/f3_13.pdf ).

Beləliklə, xalqının ümummilli lideri, Ulu öndəri olmaq şərəfini sağlığında qazanmış Heydər Əliyevin  Xalqına Müraciətindəki, yekun hissə  nəticə, "nöqtə", "nida" mənasında sonluq deyil. Buradaca dünya siyasətşünaslığının xarizmalı lider tipinin mühüm prinsiplərindən olan bir şərti yada salmaq yerinə düşər. Xarizmalı liderlər "Davamçılarını öyrədirlər, yetişdirirlər, müdafiə edirlər və eyni zamanda öz zəfərlərini paylaşırlar"

(http://www.elitarium.ru/liderstvo-harizma-kachestva-rukovoditel-vlijanie-priznanie). Biz bu nöqteyi-nəzərdən deyə bilərik ki, Ulu öndərin Xalqa Müraciətindəki nəticə hissəsi onun davamçısını təqdim etmək və məqsədə doğru hərəkətdə son nöqtə deyil, nikbin şəkildə estafetin ötürülməsi, deməli öz yolunun davamı, başqa bir tərəfdən tamamlanmalı böyük məqsədlərə doğru əsl yenilənmə-başlanğıc mahiyyətində sırf siyasi-nəzəri mövqedən bir qərar idi.

**Nəticə**. ***Heydər Əliyev:*** *"Üzümü Sizə - həmvətənlilərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intelektual, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərhaycan Partiyası bundan sonra da xalqımızım ən layiqli övladlarını Öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafi və xalqımızım firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"* (*Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin Azərbaycan xalqına Müraciət* (http://files.preslib.az/projects/toplu/v2/f3_13.pdf ).

Heydər Əliyevin Xalqa Müraciətində "İndi isə öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm" –deyib lider davamçısı olaraq irəli sürdüyü İlham Əliyevi xalq təkcə Ulu öndərin əsl varisi, oğul övladı kimi deyil, mənəvi siyasi varis kimi də onillər idi tanıyırdı. Heydər Əliyevin xalqının övladlarının daha bilikli, peşəkar mütəxəssislər kimi yetişməsi məqsədi ilə yüzlərlə gənci Rusiyanın ən tanınmış ali məktəblərinə yolladığı illərdə İlham Əliyev də biliyini Moskvanın o dövrdə ən nüfuzlu ali məktəbi - Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda sınamış, imtahanları müvəffəqiyyətlə verərək bu ali məktəbə daxil olmuşdu. İlham Əliyev 1990-cı il, Qanlı 20 yanvar hadisələrinə ilk etiraz edən Heydər Əliyev ailəsinin üzvü olaraq Moskvadakı Azərbaycan nümayəndəliyi önündə həmvətənlərimizlə birlikdə məhv edilmiş, yaralanmış vətəndaşlarımızın harayına gəlmişdi.



(*[https://report.az/daxili-siyaset/bu-gun-umummilli-lider-heyder-eliyevin-100-illik-yubileyidir/](https://report.az/daxili-siyaset/bu-gun-umummilli-lider-heyder-eliyevin-100-illik-yubileyidir/)*)

İlham Əliyev peşəkar, savadlı, əsl rəhbər cəhətlərinə və o cümlədən xalqının səsinə səs verdiyi üçün keçmiş SSRİ rəhbəri M.Qorbaçovun qəzəbinə gəlmiş Heydər Əliyevin övladı kimi Moskva Dövlət Universitetində müəllim peşəsindən kənarlaşdırılmışdı. Mürəkkəb vəziyyətlərlə, əziyyətlərlə üzbəüz qalmış ailəsinə ən çətin və həyatı boyu məşğul olmadığı iqtisadi yönlü sahələrdə çalışmaqla dəstək olmuşdu. Beynəlxalq iqtisadiyyatı, əməkdaşlıq bacarığını dünya şöhrətli siyasətçi atasından əxz edən İlham Əliyev 1991-1994-cü illərdə artıq liderliyə doğru ilk inamlı addımlarını ataraq özəl sektorlara rəhbərlik etmişdi.

İlham Əliyev Ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycan xalqının böyük arzusu və tələbi ilə müstəqil Azərbaycan dövlətinin rəhbərliyinə gətirildiyi, Azərbaycan Respublikasının Prezidenti seçildiyi ilk vaxtlardan – 1994-cü ildən 2003-cü ilin avqust ayına kimi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, birinci vitse-prezidenti yüksək vəzifələrində çalışmış, eyni zamanda ölkənin neft siyasətinin fundamental inkişaf strategiyasının geosiyasi kontekstdə elmi cəhətdən sistemləşdirilməsində xeyli yaxından iştirak etmişdi.

1995-ci və 2000-ci illərdə birinci çağırış- Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmiş, 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilənədək xalqa millət vəkili səlahiyyətləri ilə xidmət göstərrmişdi. İlham Əliyev bu

müddətdə 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri, habelə, 2003-cü ilin yanvarında AŞPA sədrinin müavini olmuşdu. O,eyni zamanda 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, Beynəlxalq Olimpiya Komitəsinin ali ordenli fəxri şəxs olaraq müstəqil Respublikamızın cəsur idmançılarının əsl himayədarı, mənəvi hamisi idi.

İlham Əliyev Siyasi fəaliyyətlə də ciddi məşğul olan və habelə siyasi elmlər doktoru dərəcəsində bir peşəkar kimi Ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının 1999-cü ildə sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini seçilmişdir.

Bütün bu sadalanan şəxsiyyət və fəaliyyət dəlilləri təsdiq edir ki, Ulu öndər Heydər Əliyev öz namizədliyini lider xüsusiyyətlərinə malik, ölkənin etibar olunmalı layiqli vətəndaşının xeyrinə geri götürür. Bununla bərabər yuxarıda qeyd olunan bioqrafik göstəricilər deməyə əsas verir ki, bütün xarizmalı liderlər kimi Heydər Əliyev də xeyli əvvəldən davamçısını yetişdirməklə öz üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirmişdir və burada sadə yanaşma ilə həqiqi varislikdən tamamilə ayrı bir əsas- davamçı, varis məsələsi önəm kəsb edir.

Məhz buradan da çıxış edib deyə bilərik ki, Azərbaycan tarixinin XX əsr mərhələsinin görkəmli şəxsiyyəti, nəhəng siyasətçi, Ulu öndər kimi ən nüfuzlu adı ləyaqətlə qazanmış və şərəflə daşıyan, 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasının Prezidenti olmuş Heydər Əliyevin 01.10.2003-cü il tarixli Azərbaycan xalqına Müraciətində son cümlələrdə ifadə olunmuş dərin məna həyati mahiyyət kəsb edən, həmçinin tarixyüklü Qərarı – "varislik ideyası" İlham Əliyevin xalqın yüksək fəallığı ilə Prezident seçilməsi və arxada qalan 20 illik böyük bir dövrdə bütün sahələrdə möhtəşəm nailiyyətlərlə dolğun olub, hətta Azərbaycanın 30 illik ən ağır dövlət sərhəddi məsələsi – Dağlıq Qarabağ torpaqlarının işğaldan azad olması, Böyük Vətən müharibəsinin zəfərlə başa çatması ilə tarixə iz salmaqla Heydər Əliyev uzaqgörənliyini, Azərbaycan xalqının ümummilli Liderinin inamında yanılmadığın təsdiq edir.

...Seçilmək və ya seçilmiş! O, ilk olaraq nəsildə seçildi. "Yaxşı igid dayısına çəkər"- Qədim Zəngəzur torpaqlarından didərgin düşərkən, sanki doğma el-oba ayrılığına, vəhşi ermənilərin həmvətənliləri ilə qəddar davranışına dözə bilməyib həlak olmuş 23 yaşlı Heydər dayının adı ona verildi. Ailədə də qardaş-bacılarından seçildi. Naxçıvanda da seçildi. Sonra Azərbaycanda seçildi. Daha sonra bütün SSRİ-də seçildi. Nəhayət o, bütün dünya siyasətçilərindən fərqləndi, bütün liderlərdən seçildi...

Göndərilmiş! Bu söz belə bir işarə-kod kimi çox mənaları əhatə edir: 1. O, Bakıda cərəyan edəcək liderlik üçün xeyli uzaqdan-Naxçıvandan göndərildi(1951). 2. O,

Azərbaycanı daha güclü edə bilmək üçün Moskvaya daha uzaqdan Bakıdan göndərildi(1982). 3.Təkrar Bakıya uzaqdan-Moskvadan göndərildi(1990). Ancaq ikinci gəliş birinci kimi Naxçıvandan keçərək "düşünülmüşdü". Bu "düşünülmüşdü" ifadəsi bəlkə mistik səslənir. Amma xarizmanın mistikliklə əlaqəsi danılmazdır, əvvəl ilk enerjinin mənbəyinə döndü, sonra Bakıya göndərildİ(1993). Axırda da göndərildi-bu dəfə də uzaqdan və hətta lap uzaqdan- okeanların o tərəfindən-dünyanın o başından –Amerikadan Azərbaycana (2003) göndərildi. Bu dəfə ilahi qüdrət onu həyatı qədər sevdiyi Ana vətəninə - müqəddəs torpağına qarışıb onun əbədi bir parçası olmaq üçün göndərdi...

2003-cü il dekabrın 12-dən 13-nə keçən gecə Azərbaycan bir xəbərlə sarsıldı. XX əsrin nəhəng siyasətçisi, Azərbaycan xalqının yetirdiyi dahilərdən biri Heydər Əliyev vəfat etdi!..

*Tez yetər, qara xəbər*
*Öldü Öndər,-dedilər.*
*Üzüqara bu səhər...*
*En bayrağım, sən də en!..*

*O səni uca tutdu,*
*Səndə özün unutdu.*
*Bulud Günəşi tutdu...*
*En bayrağım, sən də en!..*

*Onsuz qaldı toy-düyün,*
*Dərdimiz düyün-düyün.*
*Matəm günü 7 gün ...*
*En bayrağım, sən də en!..* ***(şerdən bir parça. Xatirə Quliyeva)***

... Azərbaycanın ümummilli lideri, Ulu öndər, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2003-cü il dekabrın 15-də Bakıda ümumxalq izdihamının müşayəti ilə Fəxri Xiyabanda dəfn olundu .

"Xarici qonaqlar - Türkiyə Prezidenti Əhməd Necdət Sezər, baş nazir Rəcəb Tayyib Ərdoğan da vidalaşmağa gəliblər. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tabutun önündə ehtiram əlaməti olaraq baş əyir. Rusiya Federasiyasnın Prezidenti Vladimir Vladimiroviç Putin də Bakıya gəlməyi özünə borc bilib. O, görkəmli siyasətçinin xatirəsinə baş əyməklə bütün Rusiya xalqının, rusiyalıların başsağlığını çatdırdı. Bakını tərk edərkən Putin jurnalistlərə müsahibəsində deyəcəkdi: «Mən Heydər Əliyevə çox hörmət edirdim. Ona təkcə hörmətlə deyil, həm də dərin məhəbbətlə yanaşırdım. O, nəhəng bir dövlət xadimi idi.

Heç bir şişirtmə etmədən demək istərdim ki, siyasi nəhəng idi». Bütün dünyadan - Berlin, Vaşinqton, Tokio, Pekin və digər yerlərdən gələn başsağlığı məktublarnın ardı-arası kəsilmirdi" (Görkəmli adamların həyatı..Son borc, son xidmət. (http://azkurs.org/gorkemli--adamlarin-heyati.html?page=38). 2003-cü il oktyabr ayının 13-ü səhərdən başlayaraq 20 ildir ki. Fəxri Xiyaban qış-yaz Ulu öndər Heydər Əliyevin sıralarla ziyarətçilərini qəbul edir. Çiçəklər fəslində dünyaya gəlmişdi Heydər Əliyev. Xalq da əziz Liderinin məzarını daimi olaraq gözəl çiçəklərlə bəzəyir.




(https://report.az/daxili-siyaset/bu-gun-umummilli-lider-heyder-eliyevin-100-illik-yubileyidir/)

Azərbaycan Respublikasında və eləcə də bir sıra ölkələrdə Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin xatirəli əbədiləşdirilərək ona heykəllər qoyulmuş, adına parklar salınmışdır. Heydər Əliyev adına orden və medallar təsis edilmişdir. Heydər Əliyevin irsinin elmi tədqiqat kitabxanası yaradilmişdir. Şairlərimiz şerlər, bəstəkarlarımız mahnıları ilə Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevə sevgilərini ifadə edir, rəssam və heykəltaraşlarımız tablosunu yaradırlar.

Azərbaycan xalqının yetirdiyi dahilərdən biri Heydər Əliyevin adı və Milli Lider fəaliyyəti xalqının yaddaşında əbədiyaşarlıq qazandığındandır ki, bu gün onun anadan olmasının 100 illiyi ölkənin hər tərəfində, o cümlədən dünyanın müxtəlif dövlətlərində təntənə ilə qeyd olunur.

***Xatirə Quliyeva***
***Fəlsəfə elmləri doktoru***
***AMEA Fəlsəfə***
***və Sosiologiya İnstitutunun şöbə müdiri***